

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 11 (853) ■ 29 mart 2017 | www.vergiler.az | Qiyməti: 60 qəp.

# Prezident İlham Əliyevin Saatlı rayonuna səfəri

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Saatlı rayonuna səfər edib. Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Saatlı şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstəsi qoyub. Prezident İlham Əliyevə abidənin yerləşdiyi ərazidə görülən abadlıq işləri barədə məlumat verilib.**




Dövlətimizin başçısı Saatlı rayonunda yeni inşa edilən 110/35/10 kilovoltluq «Sarıcalar» yarımstansiyasının açılışında, Saatlı-Sarıcalar-Qara Nuru-Şirinbəyli-Fətəlikənd-Azadkənd avtomobil yolunun yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak edib, Qıraqlı kəndi ərazisində fermer Humay Məmmədovanın pambıq sahəsi ilə tanış olub. Daha sonra dövlətimizin başçısı Saatlı şəhərinin su təchizatı sistemlərinin istismara verilməsi tədbirinə və Heydər Əliyev Fondu tərəfindən Saatlıda inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasının açılış mərasiminə qatılıb.



Sonra Saatlıda pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib. Müşavirədə giriş nitqi söyləyən Prezident İlham Əliyev bildirib ki, indiyədək Saatlı rayonunun inkişafı ilə bağlı böyük işlər görülüb: «Rayonun infrastrukturu tamamilə yenidən qurulubdur. Elektrik enerjisi ilə təminat böyük dərəcədə yaxşılaşıb. Bu gün açılışında iştirak etdiyim yeni yarımstansiyanın fəaliyyəti həm əhaliyə, həm də bütün təsərrüfatlara fasiləsiz elektrik enerjisini verməklə, əlbəttə ki, böyük bir inkişafa yol açır. Eyni zamanda, Saatlı rayonunun su problemləri də həll olunur. Uzun illər ərzində əhali bu problemdən əziyyət çəkirdi. Şəhərin cəmi 30 faizi su ilə təmin olunurdu, özü də gündə 2-3 saat. İndi isə fasiləsiz, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su verilir».

Dövlətimizin başçısı rayonda qazlaşdırmanın 80 faizə çatdığını, yaxın gələcəkdə Saatlıda bir dənə də yaşayış məntəqəsinin qazsız olmayacağını qeyd edib. Bildirib ki, rayonda sosial obyektlərin tikintisi uğurla gedir, müasir xəstəxana, Olimpiya Mərkəzi, məktəblər, uşaq bağçaları inşa olunur. Rayonun hərtərəfli inkişafı Dövlət Proqramı əsasında uğurla aparılır. Pambıqçılığın inkişafından bəhs edən Azərbaycan Prezidenti qeyd edib ki, bu sahənin Azərbaycanda qədim ənənələri vardır: «Əsrlər boyu xalqımız pambıqçılıqla məşğul olubdur. Ancaq pambıqçılığın ən sürətli və uğurlu dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 1970-ci illərdə və eyni zamanda, 1980-ci illərin əvvəllərində Azərbaycanda pambıqçılıq sürətlə inkişaf edib. Əgər biz statistikaya nəzər salsaq görərik ki, Ulu Öndərin dövründə Azərbaycanda pambıq tədarükü bir neçə dəfə artıb. 1980-ci illərin əvvəllərində 800 min ton - 1 milyon tona qədər pambıq tədarük edilirdi. Bu, əlbəttə ki, respublikanın inkişafına səbəb olmuşdur. Məşğulluq yüksək səviyyədə təmin edilirdi. Pambıqçılıqla məşğul olan zəhmətkeşlər öz həyat şəraitini böyük dərəcədə yaxşılaşdırmışdılar. Kəndlərimiz abadlaşdı, o vaxt Azərbaycana böyük investisiya cəlb olundu».

Ulu öndər Heydər Əliyevin Azərbaycandan Moskvaya getməsindən sonra ölkəmizin, bütün sahələrdə olduğu kimi, pambıqçılıqda da tənəzzüllə qarşılaşdığını xatırladan dövlətimizin başçısı respublikamızın müstəqillik əldə etməsindən sonra ciddi iqtisadi islahatların aparıldığını, bir çox sahələrin, o cümlədən pambıqçılığın inkişafı ilə bağlı tədbirlər görüldüyünü, hazırda bu sahənin prioritet sahələrdən birinə çevrildiyini diqqətə çatdırıb: «Bu gün pambıqçılığın inkişafı artıq reallıqdır və 2016-cı il dönüş ili olmuşdur. Keçən il qısa müddət ərzində çox ciddi tədbirlər görüldü, texnika alındı, dövlət dəstəyi göstərildi, imkan daxilində meliorasiya işləri aparıldı. Keçən il biz 51 min hektarda pambıq əkmişdik və nəticədə 90 min tona yaxın məhsul götürülmüşdür. Bu il biz daha da ciddi hazırlaşmışıq. Bu il bütün aqrotexniki tədbirlər ən yüksək səviyyədə təşkil edilmişdir. Bu il və keçən il Dövlət İnvestisiya Proqramında pambıqçılığın inkişafı ilə bağlı böyük vəsait nəzərdə tutulmuşdur. Kompleks tədbirlər görülmüşdür. İlk növbədə, biz özümüzü texnika ilə təmin etməliyik və bunu etdik. Keçən il və bu il Azərbaycana minlərlə yeni texnika gətirilib. Keçən il 100-ə yaxın pambıqyığan kombayn gətirilmişdir. Bu il 200-dən çox müasir kombayn sifariş verilmişdir».

Prezident İlham Əliyev bildirib ki, aparılan meliorativ tədbirlər genişləndirilərək dövriyyəyə yeni əkin sahələri əlavə edilib. Kompleks tədbirlər nəticəsində bu il rekord nəticə əldə olunmalıdır: 136 min hektarda pambıq səpini gözlənilir və orta məhsuldarlıq 20 sentner səviyyəsinə qalxmalıdır. Pambıqçılığın ölkə iqtisadiyyatına böyük xeyri olduğunu deyən Azərbaycan Prezidenti bu sahənin ölkəmizə ciddi valyuta gətirdiyini vurğulayıb: «Ona görə, pambığın və mahlıcın satışı üçün bazarları aramaq lazım gəlmir və bu, əlbəttə ki, böyük üstünlükdür. Eyni zamanda, pambıqçılıq əməktutumlu kənd təsərrüfatı sahəsidir. Keçən il pambıqçılığa 10 minlərlə insan cəlb edilmişdir. Bu il bu rəqəm daha da böyük olacaq. Bölgələrdə məşğulluğun artırılması baxımından pambıqçılığın çox böyük xeyri var. Pambığın alış qiyməti keçən il 41 qəpikdən 50 qəpiyə qaldırılmışdır, eyni zamanda, 10 qəpik subsidiya verilib. Vətəndaşlar hər gün tarla başında öz halal pulunu alırlar. Artıq vətəndaşlar tərəfindən pambıqçılığa böyük maraq yaranıb. Bax, bu, çox önəmli amildir. Dövlət öz dəstəyini göstərir və göstərəcəkdir. Biz pambıqçılığın inkişafı üçün yüz milyonlarla dollar xərcləmişik və xərcləyəcəyik».

## Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 1970-ci və 1980-ci illərin əvvəllərində Azərbaycanda pambıqçılıq sürətlə inkişaf edib

Regionlarda sahibkarlığın inkişafından danışan ölkə başçısı dövlətin həmişə sahibkarlara kömək göstərdiyini, bu köməyin müxtəlif sahələrdə özünü büruzə verdiyini bildirib: «Əlbəttə ki, ilk növbədə, mənim siyasi dəstəyim xüsusi əhəmiyyət daşıyır. Mən hər il dəfələrlə sahibkarlarla görüşürəm, çalışıram ki, onların problemləri həll olunsun və onlar da ölkə iqtisadiyyatına daha böyük həvəslə yatırım, yəni, sərmayə qoysunlar. Eyni zamanda, sahibkarlara böyük maliyyə dəstəyi göstərilir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə bu günə qədər 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilmişdir. Bu kreditlər iqtisadiyyatın real sektoruna verilir. Bu kreditlər hesabına on minlərlə yeni iş yeri, yüzlərlə, minlərlə yeni müəssisə yaradılıbdır və bir sözlə, ölkəmizin qeyri-neft sektorunun inkişafı üçün yeni imkanlar açılıbdır. Məhz bunun nəticəsində bu ilin ilk iki ayında qeyri-neft sənayemiz 5 faiz, kənd təsərrüfatı isə 3 faizdən çox artmışdır. Bu, iqtisadiyyatın real sektorunun - qeyri-neft sənayesinin və kənd təsərrüfatının inkişafının göstəriciləridir».

Azərbaycan iqtisadiyyatının yeni dövrə uyğun inkişaf etdiyini deyən Prezident İlham Əliyev aparılan uğurlu iqtisadi siyasətin, yeni təşəbbüslərin və islahatların dayanıqlı inkişafı təmin edəcəyinə əminliyini bildirib: «Bu yaxınlarda bir çox sahələr üzrə strateji yol xəritələri tərtib edilib, onlar dərc olunub. İctimaiyyət artıq bunu bilir. Hər bir sahə üzrə konkret proqramlar var, biz bu proqramlar əsasında işləyirik və işləyəcəyik. Növbəti illərdə əsas vəzifələrdən biri qeyri-neft məhsulları ixracının artırılmasıdır. Çünki neft-qaz sahəsində hər şey müsbət istiqamətdə gedir. Bizim böyük «Cənub Qaz Dəhlizi» layihəsi uğurla icra edilir. Bu da tarixi layihədir. Ancaq bizim əsas məqsədimiz qeyri-neft ixracımızı artırmaqdır. Bax, bunu etmək üçün kənd təsərrüfatının ənənəvi sahələri inkişaf etməlidir».

Sonra Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov, Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev, «Gilan Holdinq»in Gilan kənd təsərrüfatı qrupunun pambıqçılıq üzrə müşaviri Bəhruz Camalov, Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev, Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev, «ÇTS Aqro» MMC-nin baş direktor əvəzi Arif İbrahimov, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə çıxış ediblər.

Müşavirədə yekun nitq söyləyən Prezident İlham Əliyev bildirib ki, bu il 22 rayonda pambıq əkiləcək, əkin sahələri 136 min hektar təşkil edəcək: «Pambıq becərən rayonlarda 200 min insan işlə təmin olunacaq. Hazırda 22 pambıqtəmizləmə zavodu fəaliyyət göstərir və onların emal gücü 400 min tondur. Növbəti illərdə yeni pambıqtəmizləmə zavodlarına ehtiyac yaranacaq». Dövlətimizin başçısı nəzərə çatdırıb ki, özlüyündə sosial layihə olan bu sahənin inkişafı əhalinin sosial durumunun yaxşılaşdırılmasına da təkan verəcək.

# Portuqaliya Azərbaycanla əməkdaşlığa ciddi maraq göstərir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 26-da Portuqaliyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Paula Leal da Silvanı qəbul edib. Səfir Paula Leal da Silva fəxri qarovul dəstəsinin qarşısından keçib, etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Söhbət zamanı xanım Paula Leal da Silva Portuqaliya Respublikasının Prezidenti Marselo Rebelo de Susanın, Baş nazir Antonio Kostanın ən xoş arzularını və dərin ehtiramlarını dövlətimizin başçısına çatdırıb. O, ölkəmizə ilk dəfə səfər etdiyini, paytaxtımızın inkişafının onda çox böyük təəssürat yaratdığını, ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələrin möhkəmləndirilməsində və dərinləşdirilməsində çox maraqlı olduğunu diqqətə çatdırıb.

Prezident İlham Əliyev Azərbaycanın da Portuqaliya ilə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu vurğulayıb, ölkələrimiz arasında siyasi məsləhətləşmələrin aparılmasının, iqtisadi fəaliyyətin səviyyəsinin və biznes əlaqələrinin artırılmasının vacibliyini bildirib.

Görüşdə ölkələrimiz arasında turizm sektorunda əməkdaşlıq üçün yaxşı imkanların olduğu qeyd edilib, bu sahədə qarşılıqlı əlaqələrin genişləndirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Danimarka Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 26-da Danimarkanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Svend Ollinqi qəbul edib. Səfir Svend Ollinq fəxri qarovul dəstəsinin qarşısından keçib və etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Prezident İlham Əliyev səfirlə söhbət zamanı Azərbaycan ilə Danimarka arasında ikitərəfli əlaqələri müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə inkişaf etdirməyin zəruriliyini vurğulayıb. Hazırda ölkələrimiz arasında iqtisadi, o cümlədən ticarət sahəsində əməkdaşlığın aşağı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev daha çox biznes əlaqələrinə malik olmağın vacibliyini bildirib.

Danimarka şirkətlərinin Azərbaycandakı uğurlu fəaliyyətinə toxunan səfir Svend Ollinq ölkəsini təmsil edən şirkətin Azərbaycanın neft sektoruna sərmayə qoyduğunu, «Carlsberg» şirkətinin Azərbaycanda fəaliyyət göstərdiyini vurğulayaraq hazırda respublikamızın qida sənayesinə investorları cəlb etdiklərini xatırladıb. O, Danimarka şirkətlərinin ölkəmizə müasir texnologiya gətirəcəklərini və azərbaycanlı tərəfdaşları ilə birgə İsmayıllı rayonunda hind quşu fabrikini açmağı planlaşdırdıqlarını bildirib. Ölkələrimiz arasında ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı müqavilənin imzalanacağını da bildirən danimarkalı diplomat əlaqələrimizin genişləndirilməsi ilə bağlı səylərini əsirgəməyəcəyini vurğulayıb.

Dövlətimizin başçısı Danimarka şirkətlərinin ölkəmizin regionlarında qeyri-neft sektoruna sərmayə yatırmalarını Azərbaycanın iqtisadi siyasətinə uyğun olduğunu vurğulayıb və bunun regionların inkişaf etdirilməsi, yerli istehsalın genişləndirilməsi, idxaldan asılılığın azaldılması və daha çox ixrac imkanlarının artırılması baxımından önəmini qeyd edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Danimarkalı diplomat ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan edib.

BU NÖMRƏMİZDƏ

TİCARƏT FESTİVALLARINDA ƏDV, ƏCNƏBİLƏRLƏ YANAŞI, YERLİ VƏTƏNDAŞLARA DA QAYTARILACAQ 2
İQTİSADİ İSLAHATLARDA İNNOVATİVLİK STRATEJİ HƏDƏF SAYILIR 3
NAĞDSIZ ÖDƏNİŞLƏR İQTİSADİ ARTIMA VƏ XƏRCLƏRİN AZALMASINA SƏBƏB OLUR 4
ŞƏFFAFLIĞIN ARTIRILMASI SAHİBKARLIĞIN İNKİŞAFINI STİMULLAŞDIRIR 5

# Ticarət festivallarında ƏDV, əcnəbilərlə yanaşı, yerli vətəndaşlara da qaytarılacaq



Vergilər nazirinin müşaviri - Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru, baş vergi xidməti müşaviri Ələkbər Məmmədovla müsahibə

***- Ələkbər müəllim, yaxın zamanlarda Bakıda maraqlı bir iqtisadi yeniliyin şahidi olacağıq. Ümumiyyətlə, ticarət festivallarının başlıca məqsədi nədir?***

- Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunda prioritet istiqamətlərindən biri turizm sənayesidir. Ölkəmizdə turizmin inkişafının davamlılığını təmin etmək məqsədilə qanunvericilik təkmilləşdirilir, mühüm proqram və layihələr icra olunur, dövlətin dəstəyi ilə müvafiq infrastruktur yaradılır. Prezident İlham Əliyevin 2016-cı il sentyabrın 1-də imzaladığı «Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» sərəncam bu sektorun gələcək inkişafı üçün yeni bir mərhələ açır. Sərəncama uyğun olaraq həyata keçiriləcək tədbirlərdən biri də paytaxt Bakıda ticarət festivallarının («shopping festival») təşkilidir. Ticarət festivallarının keçirilməsində məqsəd Azərbaycanın turizm və iqtisadi potensialının yüksəldilməsi, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi ilə ölkənin ticarət dövriyyəsinin artırılmasının stimullaşdırılmasıdır. Bu festivallar həm də vergi sisteminin təşviqini, fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması (ƏDV) sisteminin ölkədə tətbiqi ilə vergi inzibatçılığının daha da təkmilləşdirilməsini, rezident və qeyri-rezident vergi ödəyicilərinin xidmət sisteminin inkişaf etdirilməsini nəzərdə tutur. Ticarət festivallarının təşkili barədə bir sıra qanunvericilik aktları və sənədlər təsdiq olunub.

***- Ticarət festivallarının keçirilməsində Vergilər Nazirliyinin hansı işləri yerinə yetirməsi nəzərdə tutulub?***

- Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması qaydası dövlət başçısının 2017-ci il 20 fevral tarixli fərmanı ilə təsdiq edilib. ƏDV-nin qaytarılması ilə ticarət festivallarının operatoru kimi Vergilər Nazirliyi məşğul olur: ƏDV-nin qaytarılması işlərini təşkil edir, müvafiq proqram təminatının və vahid məlumat bazasının yaradılmasını və idarə olunmasını təmin edir.

***- ƏDV-nin qaytarılması proseduru necə nəzərdə tutulub?***

- Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərtilə satış həyata keçirmək üçün vergi ödəyicilərinin qeydiyyatı Vergilər Nazirliyi tərəfindən Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə müəyyən edilmiş qaydada aparılır. Festival zamanı hər bir alıcı verginin qaytarılması ilə bağlı satıcılar tərəfindən izahlı məlumat əldə edə biləcəklər. Əgər alıcı əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olarsa, satıcı ona ƏDV-nin qaytarılmasının 2-ci qaydası barədə də məlumat verməlidir. Bildiyiniz kimi, «Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası», yəni, qısaca olaraq, «Tax Free» sistemi mövcuddur və alıcı xarici vətəndaş olarsa, ona bu barədə də məlumat veriləcək. Bundan sonra həmin əcnəbi şəxs aldığı mallara görə ödənilmiş ƏDV-nin qaytarılmasını bu qaydalardan birinin tələbləri çərçivəsində özü seçə bilər.

Alıcı ƏDV-nin qaytarılması hüququndan istifadə etmək istədikdə satıcı Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalında elektron vergi hesab-fakturası (e-VHF) tərtib edir və bu barədə məlumatları real vaxt rejimində vahid məlumat bazasına ötürür. Alıcı ticarət festivalı dövründə aldığı mallar üzrə ödənilmiş ƏDV-nin qaytarılması məqsədilə müəyyən olunmuş yerlərdə yaradılan xüsusi köşkə yaxınlaşaraq aldığı malların elektron vergi hesab-fakturasını vergi orqanının köşkdə çalışan əməkdaşına təqdim edir. Məlumatlar vahid məlumat bazasında yoxlanıldıqdan sonra avtomatik olaraq risk qiymətləndirməsi aparılır və onun nəticələri əsasında vergi orqanının əməkdaşı tərəfindən mallara baxılmalı olub-olmadığı açıqlanır. Yoxlamanın nəticələrinə uyğun olaraq qaytarılacaq ƏDV məbləği barədə təsdiq qeydi aparılır, sənəd möhürlənib alıcıya təqdim olunur və bu barədə məlumat real vaxt rejimində müvəkkil banka ötürülür. Müvəkkil bank isə vergi orqanı tərəfindən möhürlə təsdiq olunmuş e-VHF-yə əsasən qaytarılmalı olan ƏDV məbləğini alıcının istəyinə uyğun olaraq, elə həmin gün nağd qaydada və ya 10 iş günündən gec olmayaraq milli valyutada (əcnəbilərə münasibətdə milli və ya xarici valyutada) alıcının bank kartına (və ya hesabına) köçürmə qaydasında qaytarır.

***- Ticarət festivalları dövründə hansı mallar üçün ƏDV qaytarılmayacaq?***

- «Tax free» sistemində olduğu kimi, burada da bir sıra mallar var ki, onlara görə tutulmuş ƏDV qaytarılmır. Buraya aksizli mallar, ərzaq məhsulları, dərman preparatları və tibbi ləvazimatlar, ölkə daxilində satışı ƏDV-dən azad edilən mallar, çərçivəyə salınmamış, emal edilməmiş və ya çeşidlənməmiş qiymətli daşlar, külçə şəklində qiymətli metallar, nəqliyyat vasitələri və onların ehtiyat hissələri aiddir.

Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması yalnız bir elektron vergi hesab-fakturası üzrə malların dəyəri (ƏDV ilə birlikdə) 100 manatdan çox olduğu hallarda təmin edilir.

***- Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması ilə «Tax free» sisteminin fərqi nədir?***

- Əsas fərq budur ki, ticarət festivallarında alıcıya fərq qoyulmur. Yəni Bakıda təşkil olunacaq ticarət festivallarında ƏDV, əcnəbilərlə yanaşı, yerli vətəndaşlara da qaytarılacaq. «Tax free» sistemində isə ƏDV-nin qaytarılması yalnız əcnəbi turistlərə şamil edilir. Daha bir fərq də budur ki, «Tax-free» sistemində 300 manatdan artıq alınmış mallar üzrə ƏDV-nin qaytarılması nəzərdə tutulurdusa, ticarət festivalları zamanı bu hədd daha aşağıdır - bir e-VHF üzrə alınan malların dəyəri ƏDV ilə birlikdə 100 manatdan çox olmalıdır. «Tax-free» sistemində alıcı malı ölkə ərazisindən çıxardıqdan sonra ən geci 90 gün ərzində ƏDV geri qaytarılır, ticarət festivallarında isə belə məhdudiyyət yoxdur - mal alındığı gün ərzində ƏDV geri qaytarılır. «Tax-free» sistemində malların yoxlanılması və ƏDV-nin qaytarılması gömrük sərhəd-buraxılış məntəqələrində, ticarət festivallarında isə bilavasitə ticarət məkanlarında yaradılan xüsusi köşklərdə həyata keçirilir.

Ticarət festivalları dövründə festival iştirakçısı olan hər bir ticarət obyektindən mal almış istənilən şəxs ona lazım olan bir çox malları daha ucuz qiymətə əldə edə biləcək, bu isə öz növbəsində ticarət dövriyyəsinin artmasına səbəb olacaqdır.

## VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

"Vergi ödəyicilərinin 2017-ci il 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, vergilərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilməməsinə görə hesablanmış faizlər üzrə 2017-ci il 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar, eləcə də vergi orqanları tərəfindən Vergi Məcəlləsinin 58.7 maddəsinə əsasən vergi ödəyicilərinə tətbiq edilən maliyyə sanksiyaları üzrə yaranmış, 2017-ci ilin 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar tamamilə silinmişdir.

Mart ayının 1-dən etibarən vergi ödəyicilərinə tətbiq edilmiş digər maliyyə sanksiyaları üzrə yaranmış vergi borcları isə aşağıdakı şərtlərlə silinə bilər:

- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-mart ayları ərzində həmin maliyyə sanksiyalarının 70 faizi ödənilərsə, qalan 30 faizi silinir.**

**Maliyyə sanksiyasının məbləğini 143490 büdcə təsnifatı kodu üzrə ödəməyiniz xahiş olunur**

Əlavə məlumat almaq istəyən vergi ödəyiciləri Vergilər Nazirliyinin 195 Çağrı Mərkəzinə, nazirliyin rəsmi internet saytına (www.taxes.gov.az), vergi ödəyicilərinə xidmət mərkəzlərinə, yaxud qeydiyyatda olduqları vergi orqanlarına müraciət edə bilərlər.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Vergi daxilolmaları üzrə büdcə tapşırıqları tam həcmdə icra olunub

2017-ci ilin yanvar-fevral ayları ərzində vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 939 milyon 138,2 min manat məbləğində vəsait ödənilib və Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz tapşırıqlarına 105,2% əməl olunub.

Hesabat dövründə 68.172 vergi ödəyicisi qeydiyyata alınıb ki, bunun da 492-si ƏDV ödəyiciləridir.




# Stimullaşdırıcı vergi islahatları davam etdiriləcək

Ölkənin perspektiv inkişaf hədəflərini və istiqamətlərini müəyyənləşdirmək, onların gerçəkləşdirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi»ndə Vergilər Nazirliyi 3 strateji yol xəritəsində 5 istiqamət üzrə əsas icraçı, 9 strateji yol xəritəsində 34 istiqamətdə icraçı qismində müəyyən edilib.

Vergilər nazirinin təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq, kiçik və orta sahibkarlıq sahəsində stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsi məqsədilə işçi qrup təsdiq edilib və 2017-2020-ci illərdə görülməsi nəzərdə tutulmuş işlərin ilkin layihəsi 4 istiqamət üzrə qruplaşdırılıb.

Sözügedən istiqamətlərə hüquqi şəxslərin dövlət qeydiyyatı, xarici investisiyalı müəssisələrin elektron qeydiyyatı ilə bağlı qanunvericilikdə dəyişikliklərin edilməsi, vergiödəyicilərinə xidmət (beynəlxalq standartlara uyğun elektron xidmətlərin göstərilməsi və dairəsinin genişləndirilməsi, avtomatlaşdırılmış məlumat bazası əsasında bəyannamələrin vergi orqanı tərəfindən hazırlanması və sair) daxildir.

Tədbirlər Planında KOS subyektlərində vergi yoxlamalarının və operativ nəzarət tədbirlərinin yalnız risk meyarları əsasında aparılmasının təmin edilməsi məqsədilə risk meyarlarının, onların dərəcələrinin, tətbiqi prinsiplərinin və mexanizmlərinin hazırlanması nəzərdə tutulub. Həmçinin, kiçik sahibkarlıq subyektlərində səyyar vergi yoxlamalarının 30 gün ərzində başa çatdırılmasının təmin edilməsi üzrə mexanizmin işlənib hazırlanması, vergi yoxlamalarının və operativ vergi nəzarəti tədbirlərinin yalnız risk meyarları əsasında aparılmasının təmin edilməsi üçün həmin meyarların elektron informasiya sistemində avtomatlaşdırılması və tətbiq edilməsi planlaşdırılıb.

# Azərbaycan – tolerantlığın mayakı...

ABŞ-dakı Atlanta Yəhudi Akademiyasının bir qrup şagirdi Azərbaycana tanışlıq səfərlərindən sonra ölkəmizi «Dini tolerantlığın mayakı» kimi dəyərləndiriblər. Bu il martın 13-19-da Avropa Azərbaycan Cəmiyyətinin (TEAS) təşkilatçılığı ilə baş tutan səfər dünya mediasında geniş işıqlandırılıb.

«Azerbaijan Praised as 'Beacon of Religious Tolerance' Following Visit by Children from Atlanta Jewish Academy» başlıqlı xəbər dünyanın 158 KİV-ində dərc edilib. Bu sıraya 76 milyon gündəlik izləyicisi olan «Yahoo! Finance», hər birinin 600 min gündəlik izləyicisi olan «Dow Jones MarketWatch», «Yahoo Singapore», «New York Business Journal» və «Atlanta Business Chronicle» kimi məşhur saytlar, həmçinin ABŞ və Avropada fəaliyyət göstərən onlarla televiziya kanalı və xəbər saytları da daxildir. «Bank of America» bankının nüfuzlu investisiya nəşri «Merrill Edge» və onlayn nəşr olan «Silicon Valley Globe» da bu xəbəri öz səhifəsində yerləşdirib. Xəbər Berlindəki məşhur «Der Tagesspiegel» nəşri, Almaniyanın «Wall Street: Online» və «Finanznachrichten», həmçinin Avstriyanın APA-OTS və İsveçrənin xəbər nəşrləri tərəfindən də dərc edilib. Sözügedən xəbərdə səfər iştirakçılarının Azərbaycan haqqında təəssüratları yer alıb. Onlar ölkəmizin zəngin tarixi keçmişinə, multikultural mədəniyyətinə heyran qaldıqlarını və burada özlərini tam təhlükəsiz hiss etdiklərini vurğulayıblar.

«Bu ölkə stereotipləri dağıdır», - deyən səfər iştirakçılarından biri, ravvin Trevis yəhudi uşaqlardan ibarət qrupun Azərbaycanda özünü tam sərbəst hiss etdiyini vurğulayıb: «Fransada mən beysbol papağı taxırdım. Düşünürdüm ki, Parisin küçələrində kippa ilə gəzmək Bakıdan daha təhlükəlidir».

# İqtisadi islahatlarda innovativlik strateji hədəf sayılır



Dünya İqtisadi Forumunun açıqladığı 2016-2017-ci illər üçün qlobal rəqabətlilik reytinqində Azərbaycan 140 ölkə arasında 37-ci yerdə qərarlaşıb. Ölkəmizin 3 pillə irəliləməsi aparılan iqtisadi islahatlar nəticəsində iqtisadiyyatın dayanıqlılığının və innovativliyinin artdığını, rəqabət potensialının gücləndiyini göstərir. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, iqtisad elmləri üzrə fəlsəfə doktoru Tahir Mirkişili ilə söhbətimizin əsas mövzusu iqtisadi islahatlara həsr olunub.

***- Tahir müəllim, dünyada baş verən qlobal təsirlər fonunda Azərbaycanda iqtisadi aktivliyi artırmaq, respublikanın inkişafının ardıcıllığını və dayanıqlığını bərpa etmək üçün nə kimi işlər görülür?***

- Hazırda dünya iqtisadiyyatında keyfiyyətcə yeni dəyişikliklər baş verməkdədir. 4-cü sənaye və ya rəqəmsal inqilabın baş verdiyi bir dövrdə iqtisadi subyektlər arasında münasibətlər, onların xarakteri və rəqabət üstünlüklərinin mənbələri dəyişməkdə və bir çox hallarda gözlənilməz xarakter almaqdadır. İnformasiya texnologiyalarının tətbiqinin rəqabət üstünlüyü yaratdığı bir dövrdə neftin dünya bazarında qiymətlərinin kəskin düşməsi, enerji mənbələri kimi alternativ enerjilərdən geniş istifadə olunması iqtisadiyyatların tsiklik inkişaf dövrlərinə də təsir etmişdir.

Dünya iqtisadiyyatının bir parçası olan və indiyədək dinamik inkişaf yolu keçən Azərbaycan iqtisadiyyatı da bu təsirlərə məruz qalmaqdadır. Qlobal təsirlərin milli iqtisadiyyata təsirini önləmək üçün hələ 2004-cü ildən Azərbaycan Prezidentinin sərəncamı ilə «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı» həyata keçirilir, neft ixracından əldə olunan gəlirlər qeyri-neft sektorunun inkişafına və buna zəmin yaradan əsas infrastruktur layihələrinə yönəldilir. Məhz bu önləyici təsirlər nəticəsində ölkə iqtisadiyyatı 2008-ci ildə baş verən və bir çox ölkələri əhatə edən iqtisadi böhrandan uğurla keçdi.

Qeyri-neft sektorunun daha da inkişaf etdirilməsi, ixracın neftdən asılılığının azaldılması, Azərbaycanda istehsal olunan məhsulların ixrac edilməsi üçün müxtəlif təşviq mexanizmləri tətbiq olunmağa başlanılmışdır. Kənd təsərrüfatı istehsalçılarının vergidən azad edilməsi, texnologiya idxal edən və istehsal ilə məşğul olan sahibkarların vergi və gömrük rüsumlarından 50% azad olunması, kənd təsərrüfatı istehsalçılarına 70% güzəştlə gübrənin, 40% güzəştlə maşın və texnikanın verilməsi, sahibkarlara güzəştli kreditlərin ayrılması, dövlət orqanlarının öz ehtiyacları üçün milli ərzaq məhsulu alış sisteminin yaradılması, vergi borclarının bağışlanılması, sahibkarlıq fəaliyyətində bütün növ yoxlamaların dayandırılması, ixracın təşviqi mexanizmlərinin yaradılması, xarici ölkə səfirliklərində ticarət nümayəndələrinin təşkil edilməsi və s. kimi çoxsaylı tədbirləri nümunə kimi söyləmək olar.

Ölkə Prezidentinin sərəncamı ilə təsdiq olunmuş «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri»ndə iqtisadiyyatın qısa, orta və uzun müddətdə dayanıqlı inkişafını təmin edəcək tədbirlər toplusu öz əksini tapmışdır. Qeyd etmək istərdim ki, görülən tədbirlərin nəticəsində artıq 2017-ci ildən başlayaraq Azərbaycanda ÜDM-in sabit artımı proqnozlaşdırılır. Qeyri-neft sektorunun ÜDM-dəki xüsusi çəkisi artıq 70%-ə çatmışdır.

***- 2016-cı ildə dövlət başçısının rəhbərliyi ilə dərin iqtisadi islahatlara start verildi. Bu islahatların hərtərəfli, uzunmüddətli və effektiv olması məqsədilə hansı tədbirlərin görülməsinə ehtiyac var?***

- Dünya Bankının 190 ölkənin biznes mühitini qiymətləndirən «Doing Business 2017» hesabatında Azərbaycan dünyada üç və daha çox islahat aparan 29 ölkədən biri kimi göstərilmişdir. Ölkə Prezidentinin iqtisadi islahatlar strategiyası milli iqtisadiyyatın bütün sektorlarını əhatə etməklə, insanların sosial rifahının yaxşılaşdırılmasına yönəldilmişdir. 2016-cı ilin sonunda qəbul edilmiş «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi»ndə qısa, orta və uzun müddət üçün həyata keçiriləcək bütün tədbirlər müəyyən olunmuşdur.

***- Milli Məclisdə də bu ilin əvvəlindən bir sıra iqtisadi xarakterli mühüm qanunlar qəbul olunub. Bu qanunların əsas hədəfləri nədən ibarətdir?***

- Bütün qanunların və mövcud qanunlara edilmiş dəyişikliklərin əsas məqsədi ölkədə aparılan iqtisadi islahatlara dəstək vermək və iqtisadiyyatın inkişafına mane ola biləcək amilləri aradan qaldırmaqdır. Qeyri-neft sektorunun inkişafı və bu sektora xarici investisiyaların cəlb olunması ilə bağlı qəbul edilən qanunlar qısa müddətdə iqtisadi cəlbediciliyi artıracaqdır. Digər tərəfdən, kiçik və orta sahibkarlığın inkişafı üçün dövlət dəstəyinin artırılması nəzərdə tutan mövcud qanunvericiliyə edilən dəyişikliklər günümüzün tələbidir və islahat paketinə uyğunlaşdırılmışdır. İxrac potensialının artırılması və ixracyönümlü sahələrin dəstəklənməsi üçün qəbul edilən qanunlar bu sahədə uzunmüddətli iqtisadi siyasəti müəyyən edərək sahibkarlar üçün əlverişli imkanlar yaradacaqdır. Bu baxımdan, Milli Məclis tərəfindən qəbul olunan iqtisadi qanunlar ölkə iqtisadiyyatının gələcək inkişafına hesablanıb.

> Azərbaycan biznes mühitinin daha əlverişli olması, investisiya cəlbediciliyinin artırılması, milli istehsalın dəstəklənməsi üçün hər il öz göstəricilərini xeyli yaxşılaşdırır

***- Ölkədəki biznes mühitinin daha əlverişli olması, investisiya cəlbediciliyinin artırılması, milli istehsalın dəstəklənməsi üçün hansı əlavə addımlar atılmalıdır?***

- Yenə də Dünya Bankının «Doing Business 2017» hesabatına istinad etsək, ölkəmiz «Biznesə başlama» göstəricisi üzrə 5-ci (əvvəlki hesabatda 7-ci), «Kiçik investorların maraqlarının qorunması» göstəricisi üzrə 32-ci (əvvəlki hesabatda 36-cı), «Xarici ticarətin aparılması» göstəricisi üzrə 83-cü (əvvəlki hesabatda 94-cü) və «Elektrik təchizatı şəbəkələrinə qoşulma» göstəricisi üzrə 105-ci (əvvəlki hesabatda 110-cu) pilləyə yüksəlib. Hesabatın «Biznesə başlama» göstəricisi üzrə Azərbaycan biznesin qeydiyyatını sadələşdirməklə dünyada ilk beşliyə daxil olub və ən yaxşı təcrübəyə malik ölkələrdən biri kimi qeyd edilib. Bundan başqa, «Əmlakın qeydiyyatı» (22), «Vergilərin ödənilməsi» (40), «Müqavilələrin icrasının təmin edilməsi» (44) indikatorları üzrə Azərbaycan öz mövqelərini yaxşılaşdıraraq, 190 ölkə arasında ilk 50-likdə qərarlaşıb. Göründüyü kimi, Azərbaycan biznes mühitinin daha əlverişli olması, investisiya cəlbediciliyinin artırılması, milli istehsalın dəstəklənməsi üçün hər il öz göstəricilərini xeyli yaxşılaşdırır. Bununla belə, görüləcək işlər də hələ kifayət qədərdir. Bu istiqamətdə daim iş aparılır.

***- Azərbaycanda ixrac potensialının artırılması və ixracyönümlü sahələrin inkişafı məqsədilə təşkil edilmiş «ticarət evləri» iqtisadiyyatımıza nə kimi yeniliklər gətirəcək?***

- İxrac fəaliyyətinin əsas hissəsi xarici bazarlara çıxış, bazar araşdırmaları, xarici bazarların ələ keçirilməsi, xarici bazarlarda milli sahibkarların maraqlarının qorunması və ticarət maneələrinin aşılmasıdır. Bu baxımdan, dövlət başçısının fərmanı ilə xarici ölkələrdə Azərbaycanın ticarət nümayəndələrinin təyin edilməsi yaradılacaq güclü ixrac potensialının reallaşmasına hesablanıb. Xarici bazarlarda çox güclü rəqabət var. Azərbaycan ixracatçılarının bu rəqabətdə rəqiblərindən üstün olması üçün bir tərəfdən keyfiyyətli məhsul istehsal etmək tələb olunursa, digər tərəfdən də güclü marketinq və təbliğat işləri aparmağa, ixrac olunan ölkələrin qanunlarını mənimsəməyə ehtiyac var. Ticarət nümayəndələri bütün məsələlərdə milli ixracatçıların maraqlarını qoruyaraq, ümumilikdə ölkənin iqtisadi maraqlarını təmin edəcəklər.

***- Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər, yeni anlayışlar haqqında da fikirlərinizi bilmək maraqlı olardı...***

- Artıq bir neçə ildir ki, iqtisadi inkişafın tələbinə uyğun ardıcıl olaraq Vergi Məcəlləsində dəyişiklik aparılır. Bu dəyişikliklərin əsas mahiyyəti iqtisadi şəffaflığın artırılması, vergi ödəyicilərinin hüquqlarının artırılması, iqtisadi inkişafın stimullaşdırılması, sahibkarların iqtisadi aktivliyinin artırılmasından ibarətdir. Müasir vergitutma metodlarının tətbiqi, vergidən yayınma hallarına qarşı texnoloji vasitələrlə mübarizə, inzibatçılığın elektron vasitələrlə daim təkmilləşdirilməsi Vergi Məcəlləsinin işləkliyinə və səmərəliliyinə xidmət edir. Texnologiyaların inkişafı innovativ sahibkarlıq fəaliyyətini də inkişaf etdirir. Sahibkarlığın ənənəvi formalarından fərqli olaraq, innovativ sahibkarlıq fəaliyyəti virtual məkanda həyata keçirilir. Vergi Məcəlləsinə edilən son dəyişikliklər yeni sahibkarlıq fəaliyyəti növlərini də qanunla nəzərdə tutulmuş vergiyə cəlb etməklə haqsız rəqabətin aradan qaldırılmasına şərait yaradır. Ümumilikdə demək olar ki, Vergi Məcəlləsinə edilən son dəyişikliklər vergiödəmə və vergitutma sahəsinin fəlsəfəsinin yenilənməsinə gətirib çıxaracaq və bu da ölkə iqtisadiyyatının inkişafına əlavə stimul verəcək. Yeni fəlsəfə vergi inzibatçılığını daha da səmərəli etməklə Azərbaycan dövlətinin sosial-iqtisadi siyasətinin güclənməsinə səbəb olacaq.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# Vergi bəyannamələri vaxtında təqdim olunmalıdır

## *Martın 31-i sonuncu ödəniş günüdür*

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin müvafiq müddəalarına əsasən, hüquqi şəxslər mənfəət, əmlak, fiziki şəxslər isə gəlir vergisi bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına təqdim etməlidirlər. Bəyannamənin təqdimetmə, habelə verginin ödənilmə müddətinin sonuncu günü qeyri-iş gününə düşdüyü halda, növbəti iş günü təqdim edilə bilər.

**Mənfəət vergisi**

Rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi və vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyində olan, bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq qeydiyyatda olduqları vergi orqanına bəyannamə verməlidirlər. Vergi ödəyiciləri həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (hesabat ilində aparılan cari ödəmələr nəzərə alınmaqla) mənfəət vergisini dövlət büdcəsinə ödəyirlər.

Vergi ödəyicisi olan hüquqi şəxs onun ləğv edilməsi haqqında qərarının qəbul edilməsi tarixindən, qeyri-rezidentin daimi nümayəndəliyi üçün bu tarix göstərilmədikdə isə qərarın Azərbaycan Respublikasının xarici dövlətlərdəki nümayəndəlikləri (Azərbaycan Respublikasının mənafeyini təmsil edən digər ölkənin konsulluq idarələrində) leqallaşdırıldığı tarixindən sonra 30 gün müddətində mənfəət vergisinin bəyannaməsini verməlidir. Bu bəyannamə vergi orqanına vergi ilinin əvvəlindən vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir. Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyir və müvafiq bəyannaməni həmin orqana təqdim edirlər.

**Əmlak vergisi**

Əmlak vergisi üzrə vergitutma obyektləri olan müəssisələr və Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyəti həyata keçirən qeyri-rezident müəssisələr (yalnız daimi nümayəndəliklə bağlı olan əsas vəsaitlərin orta illik dəyəri üzrə) əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq qeydiyyatda olduqları vergi orqanına verirlər. Vergi ödəyiciləri həmin vaxtadək illik əmlak vergisi üzrə son hesablama aparmaqla (aparılan cari ödəmələr nəzərə alınmaqla) əmlak vergisini dövlət büdcəsinə ödəyirlər.

Vergi ödəyicisi olan hüquqi şəxs onun ləğv edilməsi haqqında qərarının qəbul edilməsi tarixindən, qeyri-rezidentin daimi nümayəndəliyi üçün bu tarix göstərilmədikdə isə qərarın Azərbaycan Respublikasının xarici dövlətlərdəki nümayəndəlikləri (Azərbaycan Respublikasının mənafeyini təmsil edən digər ölkənin konsulluq idarələrində) leqallaşdırıldığı tarixdən sonra 30 gün müddətində əmlak vergisinin bəyannaməsini vergi orqanına verməlidir. Bu halda hesabat dövrü vergi ilinin əvvəlindən vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir.

**Gəlir vergisi**

Azərbaycan mənbəyindən gəlir əldə edən və ödəmə mənbəyində vergiyə cəlb olunmayan rezident və qeyri-rezident fiziki şəxslər, habelə ölkəmizin hüdudlarından kənarda gəlir əldə edən Azərbaycan Respublikasının rezident fiziki şəxsləri hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq qeydiyyatda olduqları vergi orqanına bəyannamə verirlər. Həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (hesabat ilində aparılan cari ödəmələr nəzərə alınmaqla) fiziki şəxslər gəlir vergisini dövlət büdcəsinə ödəyirlər. Gəlir vergisinin ödəyicisi Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətini dayandırdıqda 30 gün müddətində vergi orqanına gəlir vergisi bəyannaməsini verməlidir. Bu bəyannamə vergi ilinin əvvəlindən fəaliyyətin dayandırıldığı günə qədər olan dövrü əhatə edir.

**Bəyannamə və hesabatlar elektron formada təqdim edilə bilər**

Vergi Məcəlləsinə uyğun olaraq, vergi hesabatları vergi ödəyiciləri tərəfindən şəxsən və ya hesabatın təqdim edilməsi təsdiq oluna bilən hər hansı digər üsulla (rabitə təşkilatına təhvil verilməsi və ya müvafiq qanunvericiliyə uyğun olaraq, elektron sənəd formasında göndərilməsi də daxil olmaqla) təqdim edilə bilər. Artıq ölkəmizdəki vergi ödəyiciləri bəyannamə və hesabatlarının böyük əksəriyyətini elektron formada təqdim edirlər.

**Vaxtında hesabat verməyənlər maliyyə sanksiyalarına məruz qalacaqlar**

Vergi Məcəlləsində hesabatın vaxtında təqdim edilməməsinə, vergilərin vaxtında ödənilməməsinə və yayındırılmasına görə maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulmuşdur. Vergi hesabatını və ya vergi öhdəliyinin yaranmaması barədə arayışı müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisi vergi orqanının qərarına əsasən 40 manat məbləğində cərimə edilir. Bundan başqa, büdcəyə çatası vergi məbləğini hesabatı təqdim etməməklə yayındırıqda, vergi ödəyicisi yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) 50%-i miqdarında maliyyə sanksiyası ilə cəzalandırılır. Həmçinin vergi və ya cari vergi ödəməsi Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün (bir ildən çox olmamaqla) vergi ödəyicisindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1%-i məbləğində faiz tutulur. Buna görə də hər bir vergi ödəyicisi vergi öhdəliklərini vaxtında və tam olaraq yerinə yetirməlidir.

**Rəşad SADIQOV**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Nazirlər Kabinetinin proqnozlarına görə, 2017-ci il üçün Çovdar qızıl mədənində qiymətli metal filizinin yerüstü oksid hissəsinin istifadəsi nəticəsində **40 min** unsiya (1286 kq) qızıl və **60 min** unsiya (1929 kq) gümüşün hasil edilməsi gözlənilir.
- Maliyyə Nazirliyinin məlumatına əsasən, yanvar-fevral aylarında dövlət büdcəsinə **2370,5 milyon** manat vəsait daxil olub.
- 2017-ci ilin fevral ayının əvvəlinə Azərbaycanda ödəniş kartlarının sayı **5 milyon 343 min** ədəd təşkil edib. Bu göstərici ötən ilin yekunu ilə müqayisədə 9 min ədəd və ya 0,2% çoxdur.
- Yanvar-fevral aylarında Azərbaycanda ümumi daxili məhsul (ÜDM) istehsalı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,4% artaraq, **10.042,6 milyon** manat təşkil edib.
- Azərbaycan ilə İran arasında ticarət dövriyyəsi **70%**-dək artıb.
- Bu ilin yanvar-fevral aylarında ölkəmizdə tikinti materiallarının istehsalı sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən istehsal edilmiş məhsulun ümumi dəyəri 71,2% artaraq **54,7 milyon** manat təşkil edib.
- Cari ilin ilk iki ayında xarici müəssisə və təşkilatlar tərəfindən Azərbaycanda əsas kapitala **1 milyard 405,7 milyon** manat vəsait yönəldilib.
- Yanvar-fevral aylarında Azərbaycan əhalisi **6980,3 milyon** manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 4,7% çox gəlir əldə edib.

# Sosial mənzillərin tikintisi regionlarda da aparılacaq

Mənzil İnşaatı Dövlət Agentliyindən bildirilib ki, Prezident İlham Əliyevin 16 noyabr 2016-cı il tarixli Fərmanına əsasən güzəştli mənzillərin satış qaydaları müəyyən edilib. Sənəddə mənzillərin vətəndaşlar tərəfindən alınma mexanizmi və bu mənzilləri almaq hüququ olan əhali kateqoriyası da göstərilib. Əsas diqqət isə gənc ailələrə verilir.

Tikinti işlərinin 30 faizindən çoxunun başa çatmasından sonra, güzəştli şərtlərlə mənzillərin satışına başlanacaq. Eyni zamanda, ödəniş şərti də seçilə bilər - bu, birdəfəlik ödəniş və ya güzəştli kredit ola bilər. Mənzilin dəyəri daxili perimetr üzrə hesablanacaq. Təqdim edilən 33 kvadratmetrlik birotaqlı mənzil xarici perimetrin hesablanması zamanı 40 kvadratmetrə çıxacaq. Bu isə artıq 20 faiz fərq - artım deməkdir. Dövlətin güzəştli mənzil proqramı iki əsas güzəşt təqdim edir. Mənzilin yerləşməsindən asılı olaraq, qiymətlər bazar qiymətindən aşağı olacaq. Eləcə də Azərbaycan İpoteka Fondu tərəfindən illik 4 faizlə verilən sosial ipoteka proqramı çərçivəsində uzunmüddətli ödəniş imkanı yaradılacaq.

Sənəddə, həmçinin, hər il 3 min yeni mənzilin istifadəyə verilməsi öhdəlik kimi qoyulur. Bu, əmlak bazarının, təxminən, 10 faizi deməkdir. Sonrakı mərhələlərdə uyğun qiymətə əmlak sistemini ölkənin başqa şəhər və regionlarında inkişaf etdirmək öhdəliyi müəyyən edilib.

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Pul vəsaitinin nağdlaşdırılması

***Fiziki şəxs kimi vergi orqanlarında qeydiyyata alınaraq sahibkarlıq fəaliyyəti ilə məşğul oluram. Sahibkarlıq fəaliyyətimlə bağlı bank hesabıma daxil olan pul vəsaitlərini nağdsız qaydada sərf etdiyim halda 1 faiz dərəcə ilə vergi tutulmalıdırmı?***

Vergi Məcəlləsinin 150.1.12-ci maddəsində qeyd edilmişdir ki, hüquqi şəxslərə və fərdi sahibkarlara bank hesablarındakı pul vəsaitlərinin nağd qaydada verilməsini həyata keçirən yerli banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru ödəmə mənbəyində vergini tutmağa borcludurlar.

Vergi Məcəlləsinin 220.12-ci maddəsinin müddəalarına əsasən, hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən bank hesablarında olan pul vəsaitlərinin nağdlaşdırılmasına görə yerli banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən sadələşdirilmiş qaydada 1 faiz dərəcə ilə ödəmə mənbəyində vergi tutulur.

**Qeyd olunanlara əsasən:**

Hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən bank hesablarında olan pul vəsaitləri nağdsız qaydada istifadə olunduğu halda, aparılan əməliyyat Vergi Məcəlləsinin 220.12-ci maddəsi ilə müəyyən edilmiş qaydada vergiyə cəlb edilmir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Nağdsız ödənişlər iqtisadi artıma və xərclərin azalmasına səbəb olur



«AtaBank»ın Bank kartları və elektron xidmətlər departamentinin direktoru Teymur Axundovun «Vergilər» qəzetinə müsahibəsi

***- Teymur müəllim, dövlət tərəfindən nağdsız hesablaşmaların stimullaşdırılması ilə bağlı mühüm vəzifələr müəyyən edilib. Bu vəzifələrin yerinə yetirilməsi üçün banklar tərəfindən hansı işlər görülməkdədir?***

- 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş «Nağdsız hesablaşmalar haqqında» Qanun nağdsız ödənişlərin genişləndirilməsi baxımından əlverişli imkanlar yaradır. Qanun iqtisadiyyatda şəffaflığın təmin edilməsi, ödənişlərə dövlət nəzarətinin həyata keçirilməsi, eyni zamanda dövlət büdcəsinə ödənilən vəsaitlərin həcminin artması baxımından mühüm əhəmiyyət kəsb edir.

Banklar öz fəaliyyətlərini qanunun tətbiqindən irəli gələn bir sıra məsələlərin həlli istiqamətində qurmağa başlayıb. Bunlar, əsasən, nağdsız ödənişlərin stimullaşdırılması, kartlarla aparılan əməliyyatlara daha çox müştəri cəlb edilməsi kimi məsələləri əhatə edir. Hazırda banklar tərəfindən POS-terminalların infrastrukturunda da müvafiq texniki işlər aparılır və təmassız kartların qəbulu üçün yeni imkanlar yaradılır. Bir neçə bank POS-terminallarla bağlı xüsusi korporativ kartların emissiyasına start verib. Bu, ticarət obyektinin sahibinin öz bankına müraciət etmək ehtiyacını aradan qaldırır, ona POS-terminal vasitəsilə aparılmış bütün əməliyyatlar üzrə vəsaiti birbaşa öz kartından əldə etməyə imkan yaradır, ticarət obyektinin işini daha da asanlaşdırır. Əksər banklarda müştərilər «Mobile-banking», «SMS-banking», «İnternet-banking» kimi onlayn xidmətlərdən rahat faydalanırlar ki, bu da nağdsız ödənişlərin inkişafında mühüm amildir. Kommersiya bankları maqnit zolaqlı kartlardan imtina etməklə öz müştərilərinə çip tipli və ya daha müasir təmassız kartlar təklif edirlər.

***- Hazırda kart bazarındakı texniki imkanları nağdsız ödənişlərin genişləndirilməsi üçün yetərli hesab etmək olarmı?***

- Ölkədə bank kartları və POS-terminalların mövcud sayı nağdsız ödənişlərin inkişafına geniş imkanlar yaradır. 2010-cu ilin sonunda Azərbaycanda fəaliyyət göstərən ticarət, ictimai iaşə və xidmət obyektlərində cəmi 6978 POS-terminal mövcud idisə, 2016-cı ilin dekabr ayında bu rəqəm 10 dəfədən çox artaraq 70.913 ədəd təşkil edib. Dövriyyədə olan kartların sayı da əhəmiyyətli dərəcədə artaraq 5,3 milyonu ötüb. Yəni indi ölkəmizdə kart bazarında geniş rəqabət üçün hər cür şərait vardır.

***- Nağdsız ödənişlərin hansı mühüm üstünlükləri var?***

- Nağdsız ödənişlər bu prosesdə iştirak edən bütün tərəflər üçün əlverişlidir. Kart vasitəsilə ödənişlərin aparılması, ilk növbədə, ticarət və iaşə obyektləri üçün əhəmiyyət kəsb edir. Bu, onların imicini və nüfuzunu yüksəldir, POS-terminal vasitəsilə aparılan əməliyyatlar müştərilərin sayını çoxaldır. Təcrübə göstərir ki, POS-terminallardan istifadə edən ticarət obyektinin dövriyyəsi 25-30% artır. Nağdsız ödənişlər ticarət obyektləri ilə yanaşı, kart istifadəçiləri üçün də sərfəlidir. Çünki onlar nağd vəsaiti özləri ilə gəzdirmirlər və nəticədə pulun itirilməsi riski aradan qalxmış olur. Kart itirildikdə isə müvafiq banka müraciət etməklə kart bloklaşdırılır və hesabda olan vəsait toxunulmaz qalır.

Nağdsız ödəniş dövlət orqanları üçün tam şəffaf sistemin yaradılması və nəzarət mexanizmlərinin gücləndirilməsi, istehlak xərcləri, sənaye istehsalı, iqtisadi artım və yeni iş yerlərinin yaradılmasının stimullaşdırılması baxımından aktualdır. Tanınmış beynəlxalq reytinq şirkəti «Mody`s»un 2016-cı ildə bank sistemi ilə əlaqədar təhlillərinə əsasən, Azərbaycanda plastik kartlarla aparılmış əməliyyatlar sayəsində ölkənin ümumi daxili məhsulu (ÜDM) təxminən 70 milyon dollar çoxalıb. ÜDM-də istehlak xərcləri 0,06% artıb. Həmin reytinq şirkətinin analitiklərinin rəyinə görə, ötən il nağdsız ödənişlərin inkişafı 70 ölkədə ÜDM-in 296 milyard ABŞ dolları artırılmasına səbəb olub, ümumi istehlak xərcləri isə 0,18% çoxalıb.

***- Banklar tərəfindən ticarət obyektləri ilə aparılan tarif siyasətini necə qiymətləndirirsiniz?***

- Hal-hazırda Azərbaycanda ticarət, ictimai-iaşə və ya xidmət obyektlərində «Visa», «MasterCard», «American Express» kartları qəbul olunur. 2016-cı ilin sonunda bir sıra POS-terminallarda «UnionPay» kartlarının qəbuluna da start verilib. Beləliklə, dünyada ən populyar sayılan ödəniş təşkilatlarının kartları artıq Azərbaycanda qəbul olunur. Ticarət, ictimai-iaşə və ya xidmət obyektlərinə tətbiq olunan xidmət haqları hər bankın tarif siyasətindən və öz prioritetlərindən asılıdır.

Kartı emissiya edən və həmin kartı qəbul edən banklar eyni prosessinq mərkəzində xidmət aldığı halda, «Visa», «MasterCard» və ya «UnionPay» kartlarla POS-terminallar vasitəsilə həyata keçirilən nağdsız əməliyyatlar üzrə ölkəmizin ticarət obyektlərindən orta hesabla 1,0-1,5% həcmində xidmət haqqı tutulur. Qeyd etmək lazımdır ki, tutulan xidmət haqqına prosessinq mərkəzinin (ortalama 0,3-0,6%) xidmət haqqı və bankın gəliri (ortalama 0,5-1,0%) daxildir. Ölkə daxilində müxtəlif prosessinq mərkəzləri arasında və ya xarici kartlar vasitəsilə keçirilən əməliyyatlar üzrə bu xidmət haqqı ortalama 2-3% təşkil edir. Hesablanan xidmət haqqına prosessinq mərkəzinin (ortalama 0,3-0,6%) və banklararası (ortalama 0,9-2,25%) xidmət haqları daxildir. Banklararası xidmət haqqı kartı qəbul edən bankdan tutularaq kartı emissiya edən bankın hesabına köçürülür. Bütün xidmət haqlarının ödənilməsindən sonra qalan məbləğ ticarət obyektinə xidmət göstərən bankın gəliri hesab olunur. Onu da qeyd etmək lazımdır ki, bəzi hallarda kart növündən asılı olaraq beynəlxalq ödəniş sistemlərinin kartları ilə aparılan əməliyyatlar üzrə banklararası xidmət haqqı yüksək olduğuna görə, ticarət obyektinə xidmət göstərən bank gəlir əldə etmir, əksinə, bu cür əməliyyatlarda həmin bank itki ilə üzləşir. Lakin ticarət obyektinə daha sərfəli xidmətin göstərilməsi məqsədilə tarif siyasətinin müəyyənləşdirilməsi zamanı bu cür əməliyyatlar hesaba alınmır. Bəzi hallarda bir vahid prosessinq mərkəzinin daxilində də aparılmış əməliyyatlar çərçivəsində banklararası xidmət haqqı tətbiq edilir. Qeyd etmək lazımdır ki, Azərbaycanda tətbiq edilən faiz dərəcələri dünyada istifadə olunan orta xidmət haqları civarındadır.

Banklar tərəfindən təqdim edilən tariflər barədə məlumat mütəmadi olaraq Mərkəzi Bankın rəsmi internet səhifəsində yerləşdirilir.

***- Ticarət, ictimai-iaşə və ya xidmət obyektində mal və ya xidməti nağdsız şəkildə alan zaman kart istifadəçisi hansı xidmət haqqı ödəyir?***

- Bu sual kart istifadəçiləri və eyni zamanda, ticarət, ictimai-iaşə və ya xidmət obyektlərinin sahibləri tərəfindən tez-tez verilir. Qeyd etmək istəyirəm ki, nağdsız əməliyyatların stimullaşdırılması və şəffaf alış-veriş sisteminin qurulması məqsədilə beynəlxalq ödəniş sistemləri tərəfindən nağdsız əməliyyatlara daim üstünlük verilir.

Bir məsələni xüsusilə vurğulamaq istəyirəm ki, ticarət obyektində mal və ya xidmətin nağdsız qaydada kart vasitəsilə alışı zamanı kart istifadəçisi bu əməliyyata görə hər hansı əlavə xidmət haqqı ödəmədən yalnız mal və ya xidmətin dəyərini ödəyir. Bu, bütün kart növlərinə aiddir. Əlavə olaraq, kartları emissiya edən bir çox banklar öz kart istifadəçiləri üçün stimullaşdırıcı kampaniyalar keçirir və əldə olunan banklararası xidmət haqqı vasitəsilə əlavə bonuslar qazandırır. Beləliklə, kart istifadəçisi nəinki ticarət obyektlərində nağdsız əməliyyat zamanı əlavə xidmət haqqı ödəmir, hətta bonus və ya müvafiq güzəştlər əldə edir. Hər bir bank öz kart istifadəçilərinə mütəmadi olaraq məlumat çatdırmalıdır ki, kart bankomatlardan nağd vəsaitlərin çıxarılması üçün yox, mal və ya xidmətin alınması üçün istifadə edilməlidir və bu halda, nağd vəsaitlərin çıxarılması əməliyyatından fərqli olaraq, heç bir əlavə xidmət haqqı ödənilmir. Yəni, kartla alış-veriş zamanı faizlər satıcıdan tutulur, POS-terminal vasitəsilə ödəniş edən şəxs heç bir halda pul itirmir. Bütün bunlar, əsasən, əməkhaqqı, pensiya və sosial kart sahiblərinə aiddir. İnanıram ki, bu cür yanaşma ilə yaxın gələcəkdə nağdsız ödənişlərin həcmi tədricən artırılacaqdır.

**Ticarət obyektində mal və ya xidmətin nağdsız qaydada kart vasitəsilə alışı zamanı kart istifadəçisi bu əməliyyata görə hər hansı əlavə xidmət haqqı ödəmədən yalnız mal və ya xidmətin dəyərini ödəyir**

**POS-terminal vasitəsilə ödəniş edən şəxs heç bir halda pul itirmir**

***- Nağdsız ödənişlərin inkişaf perspektivlərini necə görürsünüz?***

- İnkişaf etmiş ölkələrdə plastik kartlarla həyata keçirilən ödənişlərin payı 50-60% arasında olsa da, Azərbaycanda bu rəqəm 10-11% həddindədir. Amma ölkəmizdə nağdsız ödənişlərin inkişafı üçün böyük imkanlar mövcuddur. «Nağdsız ödənişlər haqqında» Qanuna uyğun olaraq, bu prosesdə iştirak edən bütün tərəflər, o cümlədən banklar tərəfindən sağlam rəqabətlilik şəraitində müştərilərə daha əlverişli və rahat ödəniş üsullarının təqdim olunması davam etdiriləcəkdir. Yaxın gələcəkdə ölkəmizdə «NFC» (Near Field Communication), «Apple Pay» və «Samsung Pay» kimi ödəniş platformalarının yaradılması üzrə müzakirələr aparılacağı gözlənilir. Nağdsız ödəniş və elektron xidmətlər sahəsində çoxsaylı tədbirlər həyata keçirən Mərkəzi Bank, Maliyyə Bazarlarına Nəzarət Palatası, Vergilər Nazirliyi və digər dövlət qurumlarının fəaliyyəti bir daha təsdiqləyir ki, qarşıya qoyulmuş strateji vəzifələrin öhdəsindən uğurla gəlinəcək.

*Müsahibəni hazırladı:*
**Elbrus CƏFƏRLİ**

# Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbzin əldə edilməsi

Azərbaycan qanunvericiliyinə əsasən, toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət, fərdi foto, audio-video xidmətləri (fotostudiyalar istisna olmaqla) sahəsində fəaliyyət, çəkməçi, pinəçi, saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri, fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu və s. fəaliyyət növləri ilə fərdi qaydada məşğul olan fiziki şəxslər üçün sadələşdirilmiş vergi üzrə sabit vergi məbləği müəyyən edilmişdir. Sabit vergi dedikdə, fərdi şəkildə fəaliyyət göstərən fiziki şəxsin gəlirindən və dövriyyəsindən asılı olmayaraq ödədiyi dəyişməz vergi məbləği başa düşülür. Fiziki şəxs yuxarıda qeyd olunan fəaliyyətə başlayanadək, vergi orqanından «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almalıdır.

### Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbzi necə əldə etməli?

Vergilər Nazirliyinin rəsmi saytında (www.gov.az) bununla bağlı izahlı material yerləşdirilib. Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamenti tərəfindən hazırlamış materialda sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbzi əldə etməyin iki üsulu qeyd edilir:

- qəbzin vergi orqanına getmədən internet vasitəsilə elektron qaydada müraciət etmək;

- ənənəvi qaydada vergi orqanına, yəni vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etmək.

### Qəbzin elektron qaydada əldə edilməsi

Elektron qaydada müraciət etmək üçün Vergilər Nazirliyinin İnternet Vergi İdarəsinə (www.e-taxes.gov.az) daxil olub «Giriş» düyməsi sıxılır və istifadəçi kodu, şifrə, parol və ya ASAN imza, e-imza məlumatları daxil edilməklə «Onlayn kargüzarlıq» bölməsinə keçid edilir. Qəbzlə bağlı ərizənin elektron göndərilməsi üçün «Yeni» müraciət düyməsi sıxılır və açılan pəncərədə «Kimə» siyahısından - «Vergilər Nazirliyi», «Müraciətin növü» siyahısından - «Ərizə», «Sənədin növü» siyahısından - «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» seçilir.

«Qəbul» düyməsi sıxıldıqda ərizənin elektron forması açılır və bu halda vergi orqanının adı, vergi ödəyicisinin adı və VÖEN-i avtomatik əks olunur. Sonra fəaliyyət növü, fəaliyyətin həyata keçirildiyi, fəaliyyət göstərəcəyi dövr seçilir, dövrün başlama tarixi daxil edilir və «İrəli» düyməsi sıxılır. Bundan sonra ərizəyə daxil edilmiş məlumatların yoxlanılması üçün növbəti təsdiqləmə ekranı açılır. Bu ekranda ödənilməli sabit vergi məbləği əks olunur. Məlumatların doğruluğuna əmin olduqda ekranın aşağı sol hissəsindəki «Tanış oldum, məlumatların doğruluğunu təsdiq edirəm» xanası işarələnir, sonra təsdiqləmək üçün «Qəbul» düyməsi, əks halda «İmtina» düyməsi sıxılır. «Qəbul» düyməsi sıxıldıqda ekranda «Məbləği ödə» pəncərəsi açılır. «Ödə» düyməsi sıxılmaqla Hökumət Ödəniş Portalına keçid edilir. Portalda ödəniş kartının məlumatları daxil edilməklə real vaxt rejimində ödəniş həyata keçirilir. Məbləğ ödənildikdən sonra açılan pəncərədəki «Çap» düyməsi sıxılmaqla ödənişi təsdiq edən qəbzi çap etmək mümkündür. «Son» düyməsini sıxdıqda ekrana sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi barədə qəbzin alınması haqqında bildiriş çıxır. Bununla da vergi ödəyicisi həmin qəbzi rəsmi şəkildə əldə etmiş olur.

### Qəbzin kağız formada alınması

Xidmət mərkəzlərinə müraciət etməklə qəbzin kağız formatda əldə edilməsi üçün fiziki şəxs öz seçiminə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün sadələşdirilmiş vergi üzrə sabit vergini banka, poçta və ya ödəniş terminalına ödəyərək ödəniş sənədini əldə etməlidir. Vergi məbləği «114327 - digər fiziki şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi» təsnifat kodu üzrə ödənilməli, ödəniş sənədində fiziki şəxsin VÖEN-i göstərilməlidir.

Daha sonra şəxs qeydiyyatda olduğu və ya fəaliyyət göstərdiyi əraziyə yaxın olan xidmət mərkəzinə müraciət etməli, vergi orqanının əməkdaşına öz şəxsiyyət vəsiqəsini və ödəniş sənədini təqdim etməlidir. Zərurət olarsa, vergi orqanı əməkdaşının köməyi ilə «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbzin alınması üçün ərizə»ni doldurmalıdır. Ərizə qəbul edildikdən sonra xidmət mərkəzinin əməkdaşı tərəfindən sənədlərin düzgünlüyü yoxlanılır, heç bir uyğunsuzluq olmadıqda qəbz möhürlə təsdiq edilməklə vergi ödəyicisinə təqdim olunur.

Fəaliyyətini sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz almaqla həyata keçirən fiziki şəxslər bu fəaliyyətə görə vergi orqanına bəyannamə təqdim etmirlər. Fiziki şəxslər müəyyən edilmiş fəaliyyət növlərindən bir neçəsi ilə məşğul olduğu halda, sabit verginin ödənilməsi haqqında qəbzi hər bir fəaliyyət növü üzrə ayrılıqda almalıdırlar.

**A.NƏBİYEVA**

**Vergi məbləği «114327 - digər fiziki şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi» təsnifat kodu üzrə ödənilməli, ödəniş sənədində fiziki şəxsin VÖEN-i göstərilməlidir**

# Qarşılıqlı əməkdaşlıq ümumi işə fayda verəcək

Yaxın günlərdə Azərbaycanın kənd təsərrüfatı məhsullarının ekspertizasının qısa vaxt ərzində və operativ şəkildə həyata keçirilməsi məqsədilə Rusiya tərəfindən bu sahədə ixtisaslaşmış ekspertlər sərhəd-keçid məntəqələrində fəaliyyətə başlayacaq.

Bu barədə martın 28-də Xaçmaz Gömrük İdarəsinin Rusiya-Azərbaycan sərhədində yerləşən «Samur» sərhəd-keçid məntəqəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Xaçmaz Gömrük İdarəsi və Rusiya Federasiyası Federal Gömrük Xidməti Şimali Qafqaz Gömrük İdarəsinin əməkdaşları arasında növbəti işçi görüş zamanı bildirilib. Görüşdə qarşılıqlı əlaqələrin hazırkı vəziyyətindən məmnunluq ifadə olunub, ilkin məlumat mübadiləsi, yük nəqliyyat vasitələrinin sərhədkeçmə prosesinin sinxronlaşdırılması və digər sahələrdə səylərin artırılmasının vacibliyi vurğulanıb.

Tədbirdə, həmçinin, son günlərdə Azərbaycandan Rusiya Federasiyasına ixrac edilən kənd təsərrüfatı məhsullarının mənşəyinin müəyyən edilməsi məqsədilə ekspertizaya göndərilməsi və müvafiq ekspert rəylərinin yubadılması qarşı tərəfin diqqətinə çatdırılıb və bildirilib ki, daşıdıqları yüklərə dair ekspertiza sənədləri adı ilə nəqliyyat vasitələrinin saxlanılması əlavə xərclərə, məhsulların sıradan çıxmasına, təyinat məntəqəsinə vaxtında çatmamasına səbəb olur. Rusiya nümayəndə heyətinin üzvləri bu məsələ ilə bağlı müvafiq qurumları məlumatlandıracaqlarını, bundan başqa, yaxın günlərdə kənd təsərrüfatı məhsullarının ekspertizasının qısa vaxt ərzində və operativ şəkildə həyata keçirilməsi məqsədilə bu sahədə ixtisaslaşmış ekspertlərin sərhəd-keçid məntəqələrində fəaliyyətə başlayacaqlarını diqqətə çatdırıblar.

Tərəflər qarşılıqlı əməkdaşlıq və məlumat mübadiləsinin gücləndirilməsinin sərhədkeçmə proseslərinin sürətləndirilməsinə, ümumi işə fayda verəcəyinə əminliklərini ifadə ediblər.

# Şəffaflığın artırılması sahibkarlığın inkişafını stimullaşdırır

Vergilər Nazirliyinin həyata keçirdiyi «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Tədbirlər Planı»nda vergi orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaş-məmur təmaslarının minimuma endirilməsi ən vacib məsələlər kimi yer tutur. Vergi orqanlarında ən müasir texnologiyaların tətbiqinə, sahibkarların müraciət və şikayətlərinin elektron qaydada cavablandırılmasına daha çox əhəmiyyət verilir. Vergi ödəyiciləri ilə vergi orqanları arasında şəffaf münasibətlərin qurulması insanların dövlət orqanlarına olan etimadını gücləndirir.

Vergilər Nazirliyi həm paytaxt Bakıda, həm də regionlarda maarifləndirmə və təşviqat işlərini daim diqqətdə saxlayır. Bu ilin yanvar ayında bölgələrdə sahibkarlarla təşkil olunmuş görüşlərdə vergi qanunvericiliyinə edilmiş dəyişikliklərlə bağlı geniş izahat kampaniyası da bu qəbildən olan tədbirlərdən idi. Vergilər nazirinin müavini Sahib Ələkbərov başda olmaqla, nazirliyin yüksək vəzifəli rəsmiləri müxtəlif sahələri təmsil edən vergi ödəyiciləri ilə görüşmüş, onları maraqlandıran bütün suallara aydınlıq gətirmişlər. Görüşlərdə vergi ödəyicilərinə qanunvericilikdə əksini tapmış yeni anlayışlar, yeni vergi bəyannamə və hesabat formaları barədə ətraflı məlumatlar və izahlar verilmişdir. Azərbaycanın bütün regionlarını əhatə edən 3500-dən artıq sahibkarın qatıldığı bu tədbirlər yüksək fəallıq şəraitində keçmiş, qanunvericiliyin tətbiqi məsələləri sadə dildə vergi ödəyicilərinin diqqətinə çatdırılmışdır. Dialoq şəraitində keçən görüşlər zamanı ödəyicilərin üzərinə düşən öhdəliklərin mahiyyəti izah edilmiş, onların yerinə yetirməli olduqları məsələlərin həlli yolları göstərilmişdir. Vergi qanunvericiliyi ilə bağlı izahat işləri bununla yekunlaşmamışdır, bu istiqamətdə məlumatlandırma tədbirləri davam etdirilir.

Vergilər nazirinin əmri ilə Vergi Məcəlləsinə edilmiş dəyişikliklərdən irəli gələn məsələlərin həlli, vergi nəzarətinin səmərəliliyinin artırılması, təhlil bazasının genişləndirilməsi məqsədilə mövcud bəyannamələrə, hesabatlara, onların əlavələrinə və tərtib olunması qaydalarına dəyişikliklər edilmiş, bir sıra bəyannamələrə yeni əlavələr təsdiq olunmuşdur. Əlavə dəyər, mənfəət, gəlir, torpaq, mədən, yol vergilərinin, sadələşdirilmiş verginin bəyannamələri, onların əlavələrinin, habelə ödəmə mənbəyində tutulan vergi və aksiz bəyannaməsinin formaları və tərtib edilmə qaydaları yeni redaksiyada təsdiq olunmuşdur. Aparılan islahatlar çərçivəsində vergi öhdəliklərini aylıq sabit vergi şəklində ödəyəcək bir qrup vergi ödəyicisinə sabit verginin ödənilməsi haqqında qəbz (patent) təqdim olunmuşdur.

Vergilər Nazirliyi davamlı olaraq vergi ödəyiciləri üçün «Açıq qapı» günü keçirir. Bu tədbirlərdə görülmüş işlər, xidmət mərkəzlərinin fəaliyyət istiqamətləri, iş prinsipləri, vergi qanunvericiliyi və onun tətbiqi barədə məlumat və izahlar verilir, qüvvədə olan vergilər, onların hesablanması və ödənilməsi qaydaları, vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələri, vergi qanunvericiliyinin tətbiqi məsələləri, vergi bəyannamələrinin təqdim olunma müddətləri, vergi güzəştlərindən istifadə edilməsi, vergi borcu haqqında ətraflı məlumatlar verilir, vergi xidmətləri göstərilir. Ölkənin bütün regionlarında «İnsan hüquqları aylığı» çərçivəsində vergi ödəyiciləri üçün silsilə tədbirlər təşkil edilir, onların hüquq və vəzifələri izah olunur, şikayət və müraciətlər araşdırılaraq konkret tədbirlər görülür.

Son illər Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklərin böyük əksəriyyəti sahibkarlığın inkişafını stimullaşdırmağa, onların hüquqlarının qorunmasına yönəlmişdir. Məcəlləyə əlavə və dəyişikliklər vergi inzibatçılığının və vergi nəzarətinin təkmilləşdirilməsinə mühüm töhfəsini verməkdədir. Eyni zamanda, sahibkarlıq sahəsində yoxlamaların tənzimlənməsi sahəsində qəbul edilmiş əsasnaməyə uyğun olaraq əlavə tədbirlərin görülməsi sahibkarların fəaliyyətinə hər hansı müdaxilənin qarşısını alır. Hazırda yoxlamaların sayı xeyli azaldılmış və daha çox kameral üsulla aparılan yoxlamalara üstünlük verilir. Vergi ödəyicilərinin bəyannamələrinin kameral vergi yoxlaması prosesində tətbiq edilmiş yeni proqram təminatları bu sahədə vergi nəzarətinin səmərəliliyinin əsaslı şəkildə artırılmasına imkan yaratmışdır.

Nazirliyin internet saytı vasitəsilə vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı, onların fəaliyyəti ilə əlaqədar saxtakarlıq və ya korrupsiya halları, eləcə də sahibkarlıq fəaliyyətində vergi qanunvericiliyi ilə əlaqədar hüquq pozuntuları barədə rəhbərliyə müraciət etmək mümkündür. Mübahisə doğuran məsələlərlə bağlı vergi ödəyicilərinin məhkəmələrə müraciət etməzdən öncə yaranmış problemləri tez bir zamanda Vergilər Nazirliyinin Vergi Apelyasiya Şurasında həll etmək imkanları vardır. 2016-cı il ərzində Vergilər Nazirliyinin Apelyasiya Şurasının icraatında 171 müraciət olub. Həmin müraciətlərin 5-i əvvəlki ildən qalıb, 166 müraciət isə 2016-cı il ərzində daxil olub. İcraata götürülmüş müraciətlərdən 61-i səyyar vergi yoxlamaları, 42-si kameral vergi yoxlamaları, 28-i operativ vergi nəzarəti, 3-ü isə həm kameral, həm də səyyar vergi yoxlamaları ilə bağlı olub. 64 müraciətin tam, 23 müraciətin isə qismən təmin olunması barədə müvafiq qərarlar qəbul edilib.

Korrupsiyaya Qarşı Mübarizə Fondunun icraçı direktoru Vasif Mövsümovun sözlərinə görə, Azərbaycanda bu sahədə qəbul olunmuş normativ hüquqi aktlar, o cümlədən etik davranış qaydaları insan hüquqlarının qorunması istiqamətində əldə edilmiş nəticələrə müsbət təsir göstərmişdir: «Dövlət korrupsiya ilə mübarizə strategiyasını müəyyənləşdirməklə çox mühüm addımlar atmışdır. Korrupsiyaya qarşı mübarizə ilə bağlı Dövlət Proqramının və Milli Strategiyanın həyata keçirilməsi ciddi nəticələrin əldə olunmasına imkan yaratmışdır».

V.Mövsümov Vergilər Nazirliyinin davamlı olaraq beynəlxalq təşkilatlarla, vətəndaş cəmiyyəti institutları ilə korrupsiyaya qarşı mübarizə sahəsində sıx əməkdaşlıq etdiyini vurğulayaraq, antikorrupsiya tədbirlərinin həyata keçirilməsində dövlət orqanları ilə qeyri-hökumət təşkilatlarının birgə əməkdaşlığının mühüm əhəmiyyət daşıdığını qeyd etmişdir. Onun fikrincə, Vergilər Nazirliyi insan hüquqlarının qorunmasında, vətəndaşlarla sivil münasibətlərin qurulmasında da nümunəvi dövlət orqanı kimi öndədir.

2016-cı il ərzində Vergilər Nazirliyinin Apelyasiya Şurasının icraatında 171 müraciət olub. İcraata götürülmüş müraciətlərdən 61-i səyyar vergi yoxlamaları, 42-si kameral vergi yoxlamaları, 28-i operativ vergi nəzarəti, 3-ü isə həm kameral, həm də səyyar vergi yoxlamaları ilə bağlı olub. 64 müraciətin tam, 23 müraciətin isə qismən təmin olunması barədə müvafiq qərarlar qəbul edilib

**Rəşad SADIQOV**

## BİR CÜMLƏ - BİR XƏBƏR

İtaliyanın Dövlət Şurası Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan «Trans-Adriatik» (TAP) qaz boru kəmərinin tikintisinə icazə verib.

Rumıniyanın keçmiş Baş naziri Petre Roman deyib ki, Ələtdə yaradılan Azad Ticarət Zonası bir çox ölkənin iqtisadiyyatını əlaqələndirəcək.

Mayın 31-dən iyunun 3-dək Bakı Ekspo Mərkəzində Xəzəryanı regionun energetika sektorunda ən böyük tədbir - 24-cü Beynəlxalq Xəzər Neft və Qaz «Caspian Oil&Gas 2017» sərgisi keçiriləcək.

«Azərbaycan Dəmir Yolları» QSC, «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC və «Özbəkistan Dəmir Yolları» ASC arasında keçirilən görüşdə üçtərəfli memorandum imzalanıb.

Bakıda Mərkəzi Bankının təşkilati dəstəyi və dünyanın aparıcı pul çapı, təhlükəsiz kağız və mühafizə elementləri istehsalı şirkətlərinin və mərkəzi bankların iştirakı ilə «Yüksək təhlükəsiz pul çapı» mövzusunda beynəlxalq konfrans keçirilib.

Azərbaycan məhsulları ilk dəfə olaraq «Made in Azerbaijan» vahid ölkə stendi ilə Almaniyanın Düsseldorf şəhərində keçiriləcək «Prowein» sərgisində nümayiş olunacaq.

VERGİLƏR NAZİRLİYİ

VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

**2016-cı hesabat ilinin yekunlarına görə:**

- Gəlir vergisinin ödəyiciləri olan rezident və qeyri rezident fiziki şəxslər gəlir vergisinin bəyannaməsini;
- Mənfəət vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident hüquqi şəxslər mənfəət vergisinin bəyannaməsini;
- Əmlak vergisinin ödəyicisi olan müəssisələr əmlak vergisinin bəyannaməsini

cari ilin **mart ayının 31-dən gec olmayaraq** vergi orqanına təqdim etməyə, hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməyə borcludurlar.

**Bildiririk ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 57-ci, 58-ci və 59-cu maddələrinə əsasən:**

- vergi hesabatını və vergi öhdəliyinin yaranmaması barədə arayışı müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının qərarına əsasən **40 manat** məbləğində;

- büdcəyə çatası vergi məbləğini hesabatı təqdim etməməklə yayındırdıqda, vergi ödəyicisinə yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) **50 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Vergi qanunla müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün, ancaq bir ildən çox olmamaqla vergi ödəyicisindən ödənilməmiş vergi məbləğinin **0,1 faizi** miqdarında faiz tutulur.

Vergi öhdəlikləri vaxtında yerinə yetirməyi tövsiyə edirik.

Əlavə məlumat üçün "195-1" Çağrı Mərkəzinə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Elektron qaimə-fakturanın tətbiqinə başlanılır

2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı qanunun tələblərinə əsasən, sahibkarlar arasındakı münasibətlərin tam hüquqi şəkildə tənzimlənməsi, onların bir-birlərinə təqdim etdikləri mallara görə, qaimələrin elektron qaydada təqdim olunmasına dair öhdəliklər müəyyənləşib. Əlavə dəyər vergisinin (ƏDV) məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən təqdim edilmiş mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il aprelin 1-dən e-qaimə-fakturanın tətbiqi nəzərdə tutulub.

Nazirlər Kabineti artıq «Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi qaydaları»nı təsdiqləyib. Qaydalara əsasən, Azərbaycanda elektron qaimə-fakturanın təsdiq edilmiş forma və rekvizitlərə uyğun olaraq mərkəzləşdirilmiş qaydada uçotunun aparılması və tətbiqi Vergilər Nazirliyi tərəfindən həyata keçiriləcək. Vergilər Nazirliyinə elektron qaimə-fakturanın tətbiqi ilə əlaqədar müvafiq texniki imkanların yaradılmasını təmin edən tədbirlərin görülməsi tapşırılıb.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Şamil Ərəbov bildirib ki, e-qaimə-fakturanın tətbiqi ilə bağlı vergi ödəyiciləri kifayət qədər məlumatlandırılıb, qaranlıq qalan bütün məsələlər onlara izah olunub, sahibkarlara bu prosesə hazırlaşmaları tövsiyə edilib. Texniki prosedurlar tam hazırdır və e-qaimənin tətbiqinə başlamaq üçün heç bir problem yoxdur.

### E-qaimə-faktura nə üçün lazımdır?

Ş.Ərəbovun sözlərinə görə, indiyə qədər sahibkarlıq subyektləri arasında mal, iş və xidmətlər üzrə əməliyyatların rəsmiləşdirilməsi zamanı qaimə-fakturaların kağız formasından istifadə olunurdu ki, bu da əksər hallarda vergidən yayınma hallarına şərait yaradırdı. Bu sistem təkcə vergi sahəsi ilə məhdudlaşmır, hazırda maliyyə, bank sferasının elektron mühasibatlıq sistemləri yeni əsaslar üzərində qurulur, ödəniş sistemlərində dəyişikliklər baş verir, digər sahələrdə hesablaşmaların strukturu təkmilləşdirilir. Bütün bu amillər hüquqi çərçivədə də dəyişikləri və e-qaimənin tətbiqini labüd edir. Məhz bu baxımdan, e-qaimə-faktura inzibatçılıq xərclərinin aşağı salınması, məlumat mübadiləsinin çevikliyinin artırılması və aparılan əməliyyatlarda şəffaflıq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Bu əməliyyatların şəffaflaşdırılması, rəsmiləşmə prosedurunun sadələşdirilməsi, operativliyin təmin edilməsi, inzibatçılıq xərclərinin azaldılması və sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaları məqsədilə Vergi Məcəlləsinə bir sıra dəyişikliklər edilib. Məcəlləyə «Elektron qaimə-fakturalar» adlı 71-1-ci maddə və 16.1.11-6-cı və 16.1.11-ci maddələr əlavə olunub.

Vergilər Nazirliyinin Vergi qanunvericiliyinin icrasına nəzarət departamentinin baş direktoru Toğrul Quliyev isə hesab edir ki, gəlir və xərclərin, həmçinin vergitutma obyektlərinin uçotunun aparılması vergidən yayınmaya gətirib çıxarır. Ümumiyyətlə, ölkə ərazisində malların sənədsiz satılması qanuna ziddir. Hər bir mal ya ölkədə istehsal olunur, ya da xaricdən idxal edilir: hər iki halda onlar qanunamüvafiq qaydada sənədləşdirilməlidir. Əgər satılan malın sənədi yoxdursa, deməli, o, ölkəyə ya qaçaqmal kimi gətirilib, ya da qanunsuz istehsala aiddir. Bu cür halların qarşısının alınması məqsədilə Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilib. Hər bir vergi ödəyicisi sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı elektron qaimə-faktura verməyə borcludur.



Hər bir vergi ödəyicisi sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı elektron qaimə-faktura verməyə borcludur

### E-qaimənin üstünlükləri və gözləntilər

Şamil Ərəbovun sözlərinə görə, elektron qaimə-fakturanın tətbiqi vergi ödəyicilərinin özləri üçün müsbət əhəmiyyət daşıyır: «Ən böyük üstünlük qaimə-fakturaların mətbəələrdə sifariş edilməsi və hazırlanması ilə əlaqədar xərclərin və vaxt itkisinin azaldılmasından ibarətdir. Beləliklə, qeyd olunan layihənin tətbiqi nəticəsində heç bir mətbəəyə müraciət etmədən, əlavə vaxt itkisinə yol vermədən, birbaşa internet vasitəsilə real vaxt rejimində elektron qaimə-fakturanı hazırlayıb malın (işin, xidmətin) alıcısına təqdim etmək olar».

Ş.Ərəbov qeyd edib ki, Vergilər Nazirliyi ilk dəfə olaraq 2013-cü ildə ƏDV ödəyiciləri üçün e-fakturanın tətbiqinə başlayıb və nəticə uğurlu olub, xüsusilə də vergi ödəmələrində mühüm dəyişikliklər baş verib, fakturanın tətbiq olunduğu il dövlət büdcəsinə ƏDV üzrə vergi daxilolmalarının həcmi əvvəlki illə nisbətdə 70% artıb: «Bu onu göstərdi ki, öz vergi öhdəliklərini yerinə yetirməkdən yayınan sahibkarlar elektron vergi hesab-fakturanın tətbiqindən sonra uçot-sənədləşmə işlərinə daha böyük diqqət göstərirlər. Yeni qaydaların qüvvəyə minməsindən sonra vergidən yayınma hallarının qarşısı alınacaq və şəffaf uçot sayəsində vergi daxilolmalarının həcmində əhəmiyyətli artım proqnozlaşdırılır».

### Məsuliyyətdən qaçan sahibkarlar sanksiyalarla üzləşəcək

Vergi orqanları tərəfindən tətbiq olunan cərimələrin azaldılmasından sui-istifadə edərək, e-qaimə-fakturaya etinasız yanaşan sahibkarlar bununla sanksiyalara məruz qalmayacaqlarını düşünməməlidirlər. Çünki qanunla müəyyən edilmiş öhdəliklərə riayət olunmamasına görə cərimə və sanksiyalar öz qüvvəsində qalır və layihədə e-qaimənin tətbiqindən yayınan sahibkarlar üçün cəza mexanizmi nəzərdə tutulub. Toğrul Quliyevin sözlərinə görə, səyyar vergi yoxlaması və operativ vergi nəzarəti zamanı vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası, idxal mallarına münasibətdə idxal gömrük bəyannaməsindən ən azı biri olmadıqda alıcı təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə alınmış malların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası ilə üzləşəcək.

**Elbrus CƏFƏRLİ**

# Əsas prioritet yerli işçi qüvvəsinin məşğulluğunun təmin edilməsidir

Ölkəmizdə daxili əmək bazarının dünyada baş verən iqtisadi böhranın mənfi təsirlərindən effektiv qorunması dövlətin diqqətdə saxladığı məsələlərdəndir. Bunun üçün əcnəbi işçi qüvvəsinə tələbatın müəyyən edilməsi və əmək miqrasiyası kvotasının tətbiqi mexanizminin qabaqcıl dünya təcrübəsi əsasında təkmilləşdirilməsi işləri aparılır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Məşğulluq siyasəti və demoqrafiya şöbəsinin müdiri Elnur Süleymanovun sözlərinə görə, 2009-cu ildə Nazirlər Kabinetinin müvafiq qərarı ilə «Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası» təsdiq edilib və həmin ildən başlayaraq hər növbəti il üçün ƏƏSMN-in əmək bazarı və demoqrafik inkişaf, mövcud əmək ehtiyatları potensialı, həmçinin işsizlər və sərbəstləşən işçilər üzrə proqnozlar və s. ilə bağlı təqdim etdiyi məlumatlara uyğun olaraq, əmək miqrasiyası kvotası təsdiq edilir: «Əcnəbilərə iş icazələrinin verilməsi də həmin kvotaya uyğun həyata keçirilir. Kvota yerli əmək ehtiyatlarından səmərəli istifadə edilməsi və əmək miqrasiyası proseslərinin tənzimlənməsi sahəsindəki işlərin səmərəliliyinin artırılması məqsədi daşıyır. Nazirlik tərəfindən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkəmizdə iş icazəsi üçün rəy verilməsi zamanı da iş yerlərində, ilk növbədə, yerli işçi qüvvəsindən istifadə prinsipi diqqətdə saxlanılır. İxtisas və peşə bacarıqları baxımından yerli işçi qüvvəsi kifayət etməyən sahələr üzrə ixtisaslı əcnəbi işçi qüvvəsinə iş icazələrinin verilməsi üçün müsbət rəy verilir».

Hazırkı dövrdə əmək miqrasiyası kvotasının müəyyən edilməsi mexanizminin təkmilləşdirilməsinə ehtiyacın olduğunu deyən nazirlik rəsmisinin sözlərinə görə, kvota üzrə təkliflərin hazırlanmasında əmək bazarında əcnəbi işçi qüvvəsinə tələbatın dəqiq müəyyən edilməsi, iqtisadi inkişaf tendensiyalarının nəzərə alınması və kvotanın ölkə başçısı tərəfindən təsdiq edilmiş strateji yol xəritələrinin məqsədlərinə uyğunluğunun təmin edilməsi vacibdir. Bununla bağlı əmək miqrasiyası kvotasının müəyyən edilməsi üzrə yeni metodologiyanın hazırlanması zəruridir.

ƏƏSMN əmək miqrasiyası məsələləri ilə bağlı bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) və Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (İSMPD) ilə fəal əməkdaşlıq edir. Əmək miqrasiyası kvotasının tətbiqi mexanizminin milli iqtisadiyyatın inkişaf prinsipləri və dünyada mövcud olan uğurlu təcrübələr nəzərə alınmaqla təkmilləşdirilməsi və kvotanın müəyyən edilməsi üzrə yeni metodologiyanın hazırlanması üçün İSMPD-lə əməkdaşlıq nəticəsində gerçəkləşdirilən layihə çərçivəsində «Azərbaycanda əcnəbi işçi qüvvəsinə tələbatın müəyyən edilməsi üzrə tədqiqat»ın həyata keçirilməsinə başlanılıb, bunun üçün xarici və yerli ekspertlər cəlb edilib.

Xatırladaq ki, əmək miqrasiyası kvotası təqvim ili ərzində Azərbaycan ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları nəzərdə tutulan əcnəbilərin sayının son həddidir. Kvota daxili əmək bazarının vəziyyəti, işçi qüvvəsinə tələbat, iş yerinin tələblərinə cavab verən peşə hazırlığına və ixtisasa malik ölkə vətəndaşının iddia etmədiyi boş iş yerlərinin mövcudluğu, məşğulluq xidməti orqanlarının, işəgötürənlərin işçi qüvvəsinə olan ehtiyaclarını yerli əmək ehtiyatları hesabına təmin etmək imkanı, habelə yüksək ixtisaslı əcnəbi mütəxəssislərin cəlb olunması zəruriliyi nəzərə alınmaqla müəyyən edilir.

**AYTƏN**

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin mart və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin mart və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqavilənı və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

## vergi təqvimi

| MART | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | 1 | 2 | 3 | 4 | **5** |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | **12** |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | **19** |
| 20 | 21 | 22 | 23 | 24 | 25 | **26** |
| **27** | 28 | 29 | 30 | **31** | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

27 mart - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

31 mart - «1», «2» və «5».

**«1» - Gəlir vergisi:** Gəlir vergisi üzrə hesabat dövrü təqvim ilidir. Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verir və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi:** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«2» - Mənfəət vergisi:** Mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Mənfəət vergisinin ödəyicisi hesab edilən rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) vergini ödəyir və qeydiyyatda olduğu vergi orqanına bəyannamə təqdim edir.

Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə), digər müəssisələr isə dövlət büdcəsinə ödəyirlər.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Müəssisənin əmlak vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Əmlak vergisinin ödəyicisi olan müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir və vergini həmin müddətədək son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi:** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

# Sahibkarlıq fəaliyyətinin əsas hüquqi formaları

Azərbaycan qanunçuluğuna əsasən, fiziki (hüquqi şəxs yaratmadan), yaxud hüquqi şəxs kimi sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq olar. Fiziki şəxs olaraq fərdi sahibkar kimi, hüquqi şəxs formasında isə tam ortaqlıqlar, kommandit ortaqlığı, məhdud məsuliyyətli cəmiyyət, səhmdar cəmiyyəti, kooperativ kimi fəaliyyət göstərmək mümkündür. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində fiziki şəxslər hüquqi şəxslərlə eyni hüquqlara malikdirlər. Fərdi sahibkarlıq hüquqi şəxs yaratmadan fiziki şəxslərin gəlir əldə etmək məqsədilə yaratdıqları sahibkarlıq fəaliyyətinin bir növüdür. Bu növ fəaliyyət həmin şəxslərin mülkiyyətə əsaslanaraq risk və məsuliyyəti öz boynuna götürməklə həyata keçirilir.

***Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin Qeydiyyat-uçot şöbəsinin rəhbəri Nigar Alimovanın*** sözlərinə görə, hüquqi şəxs qanunla müəyyənləşdirilmiş qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxslər bir fiziki və ya hüquqi şəxs tərəfindən, o cümlədən həm fiziki, həm də hüquqi şəxslərin iştirakı ilə yaradıla bilər.

Hüquqi şəxslər kommersiya və qeyri-kommersiya olmaqla iki qrupa ayrılırlar:

- Fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olan bütün hüquqi şəxslər kommersiya hüquqi şəxsləri sayılır;

- Qeyri-kommersiya hüquqi şəxsləri isə ictimai birliklər, fondlar, hüquqi şəxslərin ittifaqları və digər formalarda yaradıla bilər.

Qeyri-kommersiya hüquqi şəxslərin əsas məqsədi mənfəət götürmək deyil və götürülən mənfəət iştirakçılar arasında bölüşdürülmür. Bu təşkilatlar, adətən, sosial, xeyriyyə, mədəni, təhsil, elm və idarəetmə sahələrində müəyyən məqsədlərə nail olmaq, bədən tərbiyəsi və idmanın inkişafı, vətəndaşların mənəvi tələbatlarının ödənilməsi, insan hüquqlarının qorunması və ictimai mənafelərə yönəlmiş digər məqsədlər üçün nəzərdə tutulur.

Təsərrüfat ortaqlıqları və cəmiyyətləri - təsisçilərinin (iştirakçılarının) paylarına bölünmüş nizamnamə (şərikli) kapitalı olan kommersiya təşkilatlarıdır. Təsərrüfat ortaqlıqları tam ortaqlıq və ya kommandit ortaqlığı formasında, məhdud və əlavə məsuliyyətli cəmiyyət və ya səhmdar cəmiyyəti formasında yaradıla bilər.

Tam ortaqlığın iştirakçıları nizamnaməyə müvafiq surətdə ortaqlıq adından sahibkarlıq fəaliyyəti ilə məşğul olur və ortaqlığın öhdəlikləri üzrə onlara mənsub əmlakla məsuliyyət daşıyırlar. Bu formada əmlakın formalaşma mənbələri əsas etibarilə iştirakçıların payları hesabına ibarət olur.

- Şəxs yalnız bir tam ortaqlığın iştirakçısı ola bilər.

- Tam ortaqlığın firma adına onun bütün iştirakçılarının adları və «tam ortaqlıq» sözləri daxil edilməli və ya «və ortaqları» sözləri əlavə olunmaqla bir və ya bir neçə iştirakçının adı daxil edilməlidir.

**Fərdi sahibkarlıq hüquqi şəxs yaratmadan fiziki şəxslərin gəlir əldə etmək məqsədilə yaratdıqları sahibkarlıq fəaliyyətinin bir növüdür**

- Tam ortaqlığın mənfəəti və zərəri, əgər nizamnamədə və ya iştirakçıların digər razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, onun iştirakçıları arasında onların şərikli kapitaldakı paylarına mütənasib surətdə bölüşdürülür.

- Tam ortaqlığın iştirakçıları ortaqlığın öhdəlikləri üzrə özlərinin əmlakı ilə birgə məsuliyyət daşıyırlar.

Kommandit ortaqlığında ortaqlığın adından sahibkarlıq fəaliyyətini həyata keçirən və ortaqlığın öhdəlikləri üzrə öz əmlakı ilə məsuliyyət daşıyan iştirakçılarla (tam ortaqları) ilə yanaşı, ortaqlığın fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların məbləği həddində risk daşıyan və ortaqlığın sahibkarlıq fəaliyyətində iştirak etməyən bir və ya bir neçə iştirakçısı - maya qoyanı (kommanditçi) vardır.

Kommandit ortaqlığın firma adında ən az bir tam ortağın adı və «kommandit ortaqlığı» sözləri əlavə edilməlidir. Kommanditçinin maya qoyması ona ortaqlıq tərəfindən verilən şəhadətnamə ilə təsdiqlənir. Kommanditçinin ortaqlığın mənfəətinin onun şərikli kapitaldakı payına düşən hissəsini nizamnamədə nəzərdə tutulan qaydada almaq, ortaqlığın illik hesabatları ilə tanış olmaq, maliyyə ili qurtardıqda ortaqlıqdan çıxmaq və nizamnamədə nəzərdə tutulan qaydada öz mayasını almaq və ya digər maya qoyana və ya üçüncü şəxsə vermək hüququ vardır.

Bir və ya bir neçə şəxs tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyət - məhdud məsuliyyətli cəmiyyət (MMC) adlanır. MMC-nin iştirakçıları onun öhdəlikləri üzrə məsuliyyət daşımır və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların dəyəri həddində risk daşıyırlar. MMC-nin iştirakçılarının sayı qanunvericiliklə müəyyənləşdirilmiş həddi keçməməlidir. Əks halda, o, bir il ərzində səhmdar cəmiyyətinə çevrilməli, bu müddət bitdikdən sonra isə, əgər onun iştirakçılarının sayı azaldılıb qanunla müəyyənləşdirilmiş həddə endirilməzsə, məhkəmə qaydasında ləğv edilməlidir.

Nizamnamə kapitalı müəyyən sayda səhmlərə bölünmüş cəmiyyət - səhmdar cəmiyyəti adlanır. Səhmləri yalnız təsisçilər arasında bölüşdürülən və onların əksəriyyətinin razılığı ilə satılan cəmiyyət qapalı tipli səhmdar cəmiyyəti adlanır. Səhmləri təsisçilərlə yanaşı kənar şəxslərə satıla bilən cəmiyyət açıq tipli səhmdar cəmiyyəti adlanır. Səhmdar cəmiyyəti öz öhdəliklərinə yerinə yetirilməsinə və borclarına görə bütün əmlakı ilə məsuliyyət daşıyır. Səhmdarlar isə yalnız öz səhmləri həcmində məsuliyyət daşıyırlar. Kooperativ fiziki və hüquqi şəxslərin birgə fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliyi olub iştirakçılarının maddi və başqa tələbatının onun üzvlərinin əmlak haqlarının birləşdirilməsi yolu ilə ödənilməsi məqsədi ilə yaradılır.

Kooperativin yaradılmasının və fəaliyyətinin əsas prinsipləri bunlardır:

- üzvlərinin qarşılıqlı yardım və iqtisadi faydalılığının təmin olunması;
- mənafelərinin əlaqələndirilməsi;
- üzvlərin paylarının həcmindən asılı olmayaraq, bir səsə malik olması;
- əməyin nəticələrinə hər bir üzvün marağının artması, yəni onların gəlirlərinin təsərrüfat fəaliyyətinin iqtisadi yekunları ilə sıx əlaqələndirilməsi;
- təsərrüfat qərarlarının qəbulunun demokratik xarakteri.

**Fəxriyyə İKRAMQIZI**

# Vergi ödəyiciləri ilə görüş

Yevlax şəhərində 11 saylı Ərazi Vergilər Departamenti rəhbərliyinin vergi ödəyiciləri ilə görüşü olub. Görüşdə vergi qanunvericiliyində edilən dəyişikliklər, bu dəyişikliklərin üstün cəhətləri, qarşılıqlı maraqlar, vergi orqanlarında aparılan struktur dəyişiklikləri, vergi ödəyiciləri ilə münasibətlərin qurulmasının əsas prinsipləri, şəffaf vergi partnyorluğu statusunun əldə edilməsi şərtləri barədə məlumatlar verilib və geniş müzakirə aparılıb.

Tədbirdə çıxış edən 11 saylı Ərazi Vergilər Departamentinin baş direktoru Zaur Adilov bildirib ki, Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş «Şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri ilə işlərin təşkili Qaydaları» vergi ödəyicilərinin müəyyən edilməsi meyarlarını, göstəriləcək xidmətləri və digər məsələlər üzrə prosedurları tənzimləyir: «Bu statusu əldə etmiş vergi ödəyicilərinə bütün xidmət mərkəzlərində «yaşıl dəhliz» prinsipi əsasında növbəsiz xidmət göstərilir».

Departamentin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin direktoru Qüdrət Məmmədov şəffaf vergi partnyorluğu statusuna malik olmaq üçün müəyyənləşdirilmiş meyarlar barədə danışıb: «Belə ödəyicilər vergi hesabatlarını vaxtlıvaxtında təqdim etməli, vergiləri düzgün hesablamalı, tam həcmdə və vaxtında ödəməli, işçilərinin sayını və onlara verilən əmək haqlarını düzgün bəyan etməli, gücləndirilmiş elektron imzaya sahib olmalı, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına uyğun, yazışmaları isə əsasən elektron şəkildə aparmalıdırlar».

Sonra görüşdə iştirak edən şəffaf vergi partnyorluğu statusunu əldə etmiş vergi ödəyicilərinə müvafiq bildirişlər təqdim olunub.

# «İxraca hazır ol» layihəsinə yekun vurulub

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) birgə həyata keçirdiyi «İxraca hazır ol» layihəsinin icrası başa çatıb. Layihənin yekunlarına dair Bakıda keçirilən tədbirdə fondun rəhbəri Rüfət Məmmədov bildirib ki, layihə çərçivəsində kiçik və orta sahibkarlıq fəaliyyəti ilə məşğul olan 20-yə yaxın iş adamı ixrac prosedurları barədə praktik və nəzəri baxımdan məlumatlandırılıb, onların bu sahədəki bilikləri genişləndirilib. AZPROMO və GİZ tərəfindən ixraca dair bir sıra beynəlxalq və yerli mütəxəssislərin iştirakı ilə təlimlər və forumlar keçirilib, Almaniya Federativ Respublikasına bir həftəlik təlim təşkil olunub və ixracatçılar üçün bələdçi kitabçası nəşr edilib.

R.Məmmədov bildirib ki, son illər ölkədə ixracın stimullaşdırılması istiqamətində həyata keçirilən islahatlar öz mühüm bəhrəsini göstərməkdədir. Azərbaycanda ixracatçılara yaradılan əlverişli şərait qeyri-neft məhsullarının ixracının artmasına səbəb olmaqdadır. Hazırda ixracın təşviqi və Azərbaycan mallarının xarici ölkələrdə ixrac missiyalarının təşkili istiqamətində işlər davam etdirilir.

Tədbirdə çıxış edən GİZ-in Azərbaycan üzrə rəhbəri Sonia Fontainen layihənin əhəmiyyətindən danışaraq qeyd edib ki, «İxraca hazır ol» layihəsi GİZ-in «Cənubi Qafqazda özəl sektorun inkişafı» proqramı çərçivəsində 2015-ci ildən etibarən kiçik və orta sahibkarlar üçün həyata keçirilir. Bildirib ki, layihənin icrası sahibkarlıq sektorunun maarifləndirilməsində mühüm rol oynayır.

# İstanbulda XX Avrasiya İqtisadi Zirvə toplantısı keçiriləcək

Aprelin 4-də Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə İstanbulda XX Avrasiya İqtisadi Zirvə toplantısı işə başlayacaq. «Bir yol ayrıcında olan insanlıq» şüarı ilə təşkil edilən toplantı üç paneldə aparılacaq. Zirvə toplantısında Azərbaycan geniş tərkibli rəsmi nümayəndə heyəti ilə təmsil olunacaq.

Toplantıda 4 dövlət başçısı, 10 sabiq prezident, xarici ölkələrin hökumət nümayəndələri, deputatlar, dini liderlər, fikir və düşüncə adamları, beynəlxalq aləmdə tanınan digər nüfuzlu şəxslər iştirak edəcəklər. Toplantının bir paneli «İslam həmrəyliyi» mövzusuna həsr ediləcək.

Təşkilat komitəsinin Zirvə toplantısı barədə yaydığı açıqlamada qeyd olunur ki, dünyadakı qaçqınlar böhranı və ağır terror aktları səbəbindən asayişin qorunması ilə bağlı yaranan problemlərin həllində ciddi çətinliklər mövcuddur. Eyni zamanda, terror aktları və insanlıq əleyhinə olan digər davranışların İslamla eyniləşdirilməsi halları müşahidə edilir. Prezident İlham Əliyevin 2017-ci ili Azərbaycanda «İslam Həmrəyliyi İli» elan etməsi yolverilməz olan bu məsələnin ciddiliyini tam aydın şəkildə ortaya qoyub.

Zirvə toplantısı iki gün davam edəcək.

beynəlxalq panoram

## Aviadaşımalara vergi qoyulacaq

İsveçin maliyyə naziri Per Bolund bildirmişdir ki, hökumət yaya qədər aviadaşımalara vergi qoyulması ilə bağlı planını ictimaiyyətə açıqlayacaq və həmin vergidən gələn gəlirlərlə kiçik biznesdən vergi daxilolmalarının azalmasını kompensasiya edəcək.

Hökumətin gözləntisinə əsasən, hava yolu ilə daşımalara tətbiq olunacaq vergidən hər il büdcəyə 1,7 milyon kron (330 min manat) gəlir daxil olacaq və həmin vəsait kiçik biznes sektorunda əməkhaqlarının ödənilməsini çətinləşdirən vergi yükünün azaldılmasına yönəldiləcək.

## Vergi güzəştlərini azaltmaq tövsiyə edilib

Beynəlxalq Valyuta Fondu (BVF) hesab edir ki, Macarıstanda vergi güzəştlərinin sayı həddindən artıq çoxdur və onların azaldılması məsləhətdir. Hökumətə vergi inzibatçılığını təkmilləşdirmək də tövsiyə edilmişdir.

BVF hər il nəşr etdirdiyi icmalda maaşlardan tutulan vergi yükünün azaldılmasını və iqtisadiyyatın ayrı-ayrı konkret sahələrində vergi rəqabətinə mane olan amillərin aradan qaldırılması məqsədilə atılan addımları bəyəndiyini bildirmişdir. Fondun rəyinə əsasən, hökumət vergiləri azaltmaqda və vergi güzəştlərini aradan qaldırmaqda davam etməli, əlavə dəyər vergisinin tutulması üçün mövcud olan mürəkkəb rejimi sadələşdirməlidir. Bundan əlavə, BVF-nin hesabatında qeyd edilmişdir ki, Macarıstan «şəffaflığın artırılması, vergi siyasətinin proqnozlaşdırıla bilməsinin gücləndirilməsi, vergiödəmə qaydalarının daha da sadələşdirilməsi nəticəsində korrupsiyanı aradan qaldırmaqla» ölkədəki biznes mühitini yaxşılaşdıra bilər.

## Varlı əcnəbilər üçün xüsusi vergi rejimi tətbiq olunacaq

İtaliya hökumətinin təklif etdiyi xüsusi vergi rejiminə əsasən, rezidentlər xaricdə əldə etdikləri bütün gəlir növləri üçün 100 min avro məbləğində illik sabit vergi ödəməlidirlər. Ölkənin vergi xidmətindən bildirilmişdir ki, bu vergi rejimi yeni rezidentlərə, eləcə də son 9 ildə rezident olmamış keçmiş rezidentlərə aiddir. Vergi rejiminin şərtləri illik gəlirləri üçün 25 min avro sabit vergi ödəyəcəkləri şərti ilə həmin şəxslərin ailə üzvlərinə də aid ediləcək.

Qeyd olunmuşdur ki, İtaliyadakı fəaliyyət nəticəsində əldə edilmiş gəlirlər ümumi qaydada proqressiv dərəcə üzrə vergiyə cəlb olunacaq. Bununla belə, burada da həmin şəxslər üçün, məsələn, əmlakın hədiyyə verilməsi, eləcə də vərəsəlik məsələləri ilə əlaqədar bir sıra güzəştlər nəzərdə tutulur. Hökumət tərəfindən bildirilmişdir ki, başqaları ilə yanaşı, «Breksit» hadisəsindən sonra özləri üçün vergidən yayınmağa əlverişli yer axtaran varlı britaniyalıları da xüsusi vergiyə cəlb etmək nəzərdə tutulur.

## İran gəlir bazasını genişləndirmək üçün vergi imkanları axtarır

Hökumət dövlətin gəlir bazasını ümumi daxili məhsulun indiki 7 faizlik səviyyəsindən 10 faizə yüksəltmək üçün yeni vergi imkanları axtarır. Beynəlxalq Valyuta Fondunun (BVF) təmsilçisinin bildirdiyinə görə, İran vergi bazasını genişləndirməli, inzibatçılığı təkmilləşdirməli, eləcə də aksiz dərəcələrini artırmalı və aksizlərin tətbiqinin əhatəsini genişləndirməlidir. BVF-nin mövqeyinə görə, İranda əlavə dəyər vergisinin dərəcəsinin artırılması korporativ vergilərə qoyulmuş güzəştlər, həmçinin 2016-2017-ci illər üçün təsdiqlənmiş fərdi gəlir vergisi dərəcələrinin azaldılması nəticəsində itirilən daxilolmaların əvəzini gətirəcək.

BVF-nin məruzəsində bildirilmişdir ki, İran öz vergi orqanını yenidən təşkil etməli və vergi ödəyiciləri tərəfindən vergi qanunvericiliyinə əməl edilməsinin səviyyəsini yüksəltmək məqsədilə risklərin idarə olunması üzrə struktur vahidi təşkil etməlidir.

## Zehni əmlaka qoyulan vergidən yayınmaq etiraz doğurur



Yaponiyanın Maliyyə Nazirliyi zehni əmlakın xarici ölkələrdə yenidən qeydiyyata salındığı vaxt vergidən yayınmaq məqsədilə bu əmlak növünün dəyərinin minimallaşdırılmasına yol verən şirkətlərə qarşı tədbirlər görməyi planlaşdırır. Həmin şirkətlər aktivlərinin dəyəri ilkin qiymətləndirilmə ilə müqayisədə daha yüksək olduğu aşkara çıxdığı halda, təkrar vergi ödəməyə məcbur edilə bilərlər.

Zehni əmlak obyekti üçün alınmış patent xarici ölkəyə ötürülürsə və nəticədə orada ehtimal olunduğundan daha çox gəlir gətirirsə, bu, Yaponiyada vergi ödəməkdən yayınmaq kimi qiymətləndiriləcək. Maliyyə Nazirliyi zehni əmlak obyektlərinin ticarət məqsədilə istifadəyə başlanmasından beş il sonra bu obyektlərin yenidən qiymətləndirilməsini təklif edir. Əgər təkrar qiymətləndirmə zamanı gəlirlilik fərqi 20%-dən çox olarsa, alınan fərq Yaponiyadakı əsas şirkətin ödəməli olduğu vergilərə əlavə ediləcək.

## Vergi informasiyasını yeniləmək mümkündür

Kanadada yenicə istifadəyə verilmiş iki portal vasitəsilə vergi ödəyiciləri öz vergi ödənişlərinə aid məlumatları yeniləyə və idarə edə bilirlər. Saytlar Kanadanın Vergi Xidməti, həmçinin Sosial və Ailə İnkişafı Departamenti tərəfindən istifadəyə verilmişdir.

Dövlət gəlirləri naziri Diana Lebutilyö bu yeniliklə bağlı açıqlama verərək demişdir: «Biz inanırıq ki, kanadalılar ilə iki dövlət təşkilatı arasındakı yeni kommunikasiya kanalı vergilər barədə məlumatları sürətli və etibarlı şəkildə əldə etmək, eləcə də məlumatları vaxtlı-vaxtında yeniləmək imkanı yaradacaq».

Kanadanın ailə və sosial inkişaf naziri isə hesab edir ki, ölkədə mövcud olan bütün sosial proqramlar barədə zəruri məlumatları ala bilmək üçün vətəndaşlara daha da rahatlıq yaratmaq baxımından hökumətin atdığı bu addım təqdirəlayiqdir.

## «Tüfeylilik vergisi»nin tətbiqi dayandırıldı

«Reuters» agentliyinin məlumatına görə, Belarus Prezidenti Aleksandr Lukaşenko vətəndaşları bütün gün ərzində işlə məşğul olmağa təşviq etmək məqsədi daşıyan «tüfeylilik vergisi»nin tətbiqinin dayandırılması ilə bağlı sərəncam imzalamışdır. Dövlət başçısı bildirmişdir ki, bir il ərzində 183 gündən az işləyən əməkqabiliyyətli vətəndaşlar 2017-ci ildə «sosial parazitliyə qarşı fərmana» aid edilmirlər. Lakin o, verginin ləğv olunduğunu qeyd etməmişdir.

Xatırladaq ki, 2015-ci ildə qüvvəyə minmiş fərmanla vətəndaşlardan «sosial parazitliyə görə» ildə təxminən 250 ABŞ dolları məbləğində vergi tutulurdu. Burada məqsəd bir il ərzində 183 gündən az işləyən vətəndaşların işləməməsi ucbatından əməkhaqqı yığımları üzrə dövlətin itkilərinin kompensasiya edilməsi idi. Hökumətin bu addımı əhali arasında ciddi narazılıq doğurmuş, kütləvi etiraz aksiyalarının keçirilməsinə səbəb olmuşdu.

A.Lukaşenko «sosial parazitliyə görə» verginin yığılmasının dayandırıldığını elan edərək bildirmişdir ki, «fərman martın sonuna qədər dəqiqləşdiriləcək, lakin ləğv edilməyəcək». Prezidentin sözlərinə görə, 2017-ci ildə özlərinə iş tapan vətəndaşların 2016-cı ildə ödəmiş olduqları vergilər tam həcmdə özlərinə qaytarılacaq.

Qeyd edək ki, son vergi yoxlamalarının nəticələrinə əsasən, 470 min vətəndaş qeyd olunan vergini ödəməli olsa da, faktiki olaraq, bu vergini 50 min adam ödəmişdir.

## Xəbər lenti

**Kanada**nın Baş naziri tərəfindən açıqlanmış yeni dövlət büdcəsində ənənəvi taksi xidmətindən fərqli fəaliyyət göstərən və getdikcə populyarlığı artan «Uber Technologies Inc.» kimi xidmət şirkətlərinə verilmiş güzəştlərin aradan qaldırılması nəzərdə tutulmuşdur.

**Nyu-York**un 80 varlı sakini ştatın qubernatoruna göndərdikləri müraciətdə qeyd etmişlər ki, onlar və digər zəngin sakinlər məktəblərin, yolların, körpülərin, eləcə də kasıb əhaliyə yardım məqsədilə qəbul edilmiş proqramların maliyyələşdirilməsi üçün əlavə vergi ödəməlidirlər. Gözləniləyinə görə, varlılardan tutulacaq xüsusi vergilər sayəsində büdcəyə 2 milyard dollar əlavə vəsait daxil ola bilər.

**Fransa ilə İsveçrə** hökumətləri arasında Bazeldəki «Mulhouse Freiburg» hava limanı ilə bağlı vergi sazişi imzalanmışdır. Müqavilənin şərtlərinə görə, İsveçrədə toplanılan əlavə dəyər vergisi yerli vergi orqanları tərəfindən tutulacaq və yerli fondlara köçürüləcək, korporativ vergidən əldə olunan məbləğ isə iki dövlət arasında bölünəcək. İsveçrə zonasındakı şirkətlər Fransanın gəlir vergisinə və İsveçrənin kapital vergisinə cəlb olunacaq.

**İslandiya** dövləti turist axınını azaltmaq üçün yeni yığımlar tətbiq etməyi və mövcud vergiləri artırmağı planlaşdırır. Hazırda bu ölkə dünyanın ən böyük turizm mərkəzlərindən biri sayılır.

## ÜST şəkər vergisini dəstəkləyir

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Cənubi Afrika Respublikasının (CAR) diabet, piylənmə və digər qeyri-infeksion xəstəliklərə qarşı profilaktika və mübarizə məqsədilə şəkərə vergi qoymaq addımını dəstəklədiyini bəyan etmişdir. ÜST-nin ölkədəki nümayəndəsi Rufaro Çatoranın bildirdiyinə görə, bu təşkilata üzv ölkələr 2025-ci ilə qədər piylənmənin və şəkər xəstəliyinin yayılmasının 25% dayandırılması, eləcə də qeyri-infeksion xəstəliklərdən vaxtsız ölüm hallarının azaldılması barədə öhdəlik götürmüşlər. Elə buna görə də ÜST CAR-ın maliyyə nazirinin keçən ilin avqust ayında elan etdiyi şəkər vergisinin tezliklə tətbiq olunmasının lehinə çıxış edir.

ÜST təmsilçisinin bildirdiyinə görə, bir sıra ölkələrdə şəkər üçün vergi qoyulması təcrübəsinin gerçəkləşdirilməsi bu ərzaq məhsulunun istehlakının azaldığını nümayiş etdirir, eləcə də diabet, piylənmə və digər qeyri-infeksion xəstəliklərlə mübarizə üçün əlavə vəsaitlərin yönəldilməsinə şərait yaradır.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Şəki rayonunda kənd; 2.Əzələlərin, bəzən əsəb sisteminin və fəqərə sümüklərinin xəstəliyi nəticəsində bel nahiyəsində ağrı, sancı; 3.Doqquz nəfərdən ibarət ansambl; 4.Qədim türklərdə, sonralar isə kazak icmalarında hərbi bölük başçısı; 5.Pasxa bayramının ənənəvi şirniyyatı; 6.Asiyada dövlət; 9.Bəstəkarların yaratdıqları hər bir əsərin ardıcıllıqla nömrələnməsi (işarə olunması); 13.Respublikamızda rayon; 15.Fiziki və ya hüquqi şəxsin müəyyən hüquq, iddia və tələblərindən (o cümlədən sahiblik və mülkiyyət hüquqları ilə əlaqədar) imtina etməsi; 16.Bəzi ərəb ölkələrində gümüş pul vahidi; 17. Azərbaycanda, Qazaxıstanda, Özbəkistanda, Qırğızıstanda, Rusiya Federasiyasında, Türkiyədə bəzən kompakt halda, digər yerlərdə dağınıq şəkildə yaşayan türk xalqlarından biri; 18.Avstriya rəssamı, son barokko və ilkin klassisizm dövrünün təmsilçisi; 20.Türk və altay mifologiyasında dəmir tanrısı *(xan)*; 21.Respublikamızda ictimai birlik. **Soldan sağa:** 1.Şərur rayonu ərazisində e.ə. II - I minilliklərə aid yaşayış yeri; 5.Bitkilərin torpaq altında olan, suyu soran və bitkini qidalı maddələrlə təmin edən yarpaqsız hissəsi; 7.Hidrogen nitridi olub kəskin iyli və normal şəraitdə rəngsiz qaz; 8.Xəzər dənizinin Azərbaycan sektorunda perspektiv geoloji struktur; 10.Əsasən oyun zamanı qələbə təsiri ilə yaranan yüksək emosiya; 11.Naxçıvanın Şərur rayonundan keçən çay; 12.Rusiyanın Avropa hissəsində çay; 14.ABŞ və dünya kinematoqrafiyasının ən yüksək və nüfuzlu mükafatı; 19.İncəsənətdə dövr; 21.İonik dənizində ada; 22.Hər bir dövlətin rəmzi olan təntənəli musiqi əsəri; 23.Qədim Yunanıstanın Makedoniya çarlığının hökmdarı; 24.Şəhər rəhbəri; 25.Həmişə bir yerdə olan, yerini dəyişməyən, bir yerdən başqa yerə köçürülməyən idarə, müəssisə.



*Şərur rayonu ərazisində e.ə. II - I minilliklərə aid yaşayış yeri*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Absurd; 2.Ametist; 3.Slenq; 4.Miosen; 5.Fiakr; 6.Leqato; 9.Ftor; 13.Tiqr; 15.Qabırğa; 16.Marşal; 17.Harlem; 18.Artist; 20.Tayqa; 21.Cavid. **Soldan sağa:** 1.Anaksimen; 5.Fil; 7.Skeleton; 8.Şaiq *(Abdulla)*; 10.Roinq; 11.Enterit; 12.Utata; 14.Braqa; 19.Antiqua; 21.Cabir *(Novruz)*; 22.Şeyx; 23.Əliverdi *(xan)*; 24.Lya; 25.Komedian.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

# Dünya kuboku yarışlarında ikinci olduq



Martın 17-də İran İslam Respublikasının Abadan şəhərində yunan-Roma güləşi üzrə böyüklər arasında dünya kuboku yarışları başa çatıb. Yığma komandamız Türkiyə, Belarus və Ukrayna idmançıları ilə «B» yarımqrupunda mübarizə aparıb.

Qrupda keçirilən görüşlərdə güləşçilərimiz ardıcıl olaraq Türkiyə, Belarus və Ukrayna yığmaları üzərində 5:3 hesablı qələbə qazanıb və qrup birincisi kimi finala yüksəliblər. Finalda güləşçilərimiz digər yarımqrupun birincisi Rusiya yığma komandası ilə qarşılaşıblar. Gərgin idman mübarizəsi şəraitində keçən görüş 5:3 hesabı ilə rəqib komandanın xeyrinə başa çatıb. Bununla da yığmamız Dünya kubokunun gümüş medallarına yiyələnib.

Xatırladaq ki, 2015-ci ildə keçirilən analoji yarışda komandamız Dünya kubokunun sahibi olmuşdu.

## 22 illik prezidentliyə son?!



TASS informasiya agentliyi Beynəlxalq Şahmat Federasiyasının (FİDE) rəsmi saytına istinadla xəbər verir ki, qurumun prezidenti Kirsan İlümjinov istefa verib. Lakin az keçməmiş K.İlümjinov bu məlumatı təkzib edərək, təşkilatın rəhbəri postundan getmədiyini bəyan edib: «Məni vəzifədən götürmək istəyirdilər, amma bunu bacarmadılar. Mən heç nəyi imzalamamışam və istefaya getməyəcəyəm».

İndi şahmat dünyası kimin düz, kiminsə yalan məlumat verdiyi barədə baş sındırır. Qeyd edək ki, Rusiya Federasiyasının Kalmıkiya Respublikasının sabiq başçısı İlümjinov 1995-ci ildən FİDE-yə rəhbərlik edir.

# Güləş idman növündə yeni qaydalar

Güləş idman növünün daha da populyarlaşması və marağın artırılması məqsədilə Dünya Güləş Birliyi qaydalarda mütəmadi olaraq dəyişikliklər edir. Yeni qaydalara əsasən, sərbəst güləşdə bütün qayda pozuntuları (xalçadan kənara qaçma, rəqiblə təmasdan qaçma, qaydalara zidd hərəkətlər) xəbərdarlıq və rəqibə 2 xal verilməsi ilə nəticələnəcək. Həmçinin sərbəst güləşdə ayaq üstə edilən və təhlükəli vəziyyətlə yekunlaşmayan bütün atmalar 2 xalla qiymətləndiriləcək. Bundan başqa, sərbəst güləşdə yüksək amplituda ilə icra edilən fənd təhlükəli vəziyyətlə yekunlaşarsa 5 xal, təhlükəli vəziyyət qeydə alınmazsa 4 xalla qiymətləndiriləcək. Habelə 30 saniyə fəallıq vaxtı sonunda güləşçilərdən hər hansı biri xal almazsa passiv olan güləşçinin rəqibinə görüş dayandırılmadan 1 xal veriləcək, aktivlik vaxtı tətbiq olunan güləşçiyə xəbərdarlıq tətbiq olunmayacaq.

Yunan-Roma güləşində isə passivliyə görə tətbiq edilən parter qaydası ləğv edilib. Bu qaydada hər hansı dəyişiklik edilməyib. Görüş zamanı xalça hakimi və yan hakim səhv qərar verərsə, xalça rəhbəri qərarı müzakirə edərkən onlarla birgə video-təkrara baxa biləcək. Qanayan zədələnmələr zamanı həkimə müraciət üçün 4 dəqiqə vaxt ayrılacaq. Digər zədələnmələrdə əvvəlki qayda tətbiq ediləcək.

Aprelin 8-9-da Bolqarıstanda təşkil olunacaq Dan Kolov-Nikola Petrov beynəlxalq turnirində passivliyə görə məcburi parter tətbiq edilməsi qaydası bir daha sınaqdan keçiriləcək və yekun qərar ondan sonra veriləcək. Martın 28-dən aprelin 2-dək Macarıstanda keçiriləcək 23 yaşadək güləşçilər arasında Avropa çempionatı isə partersiz sistem ilə təşkil olunacaq.

# Azərbaycan idmançısı Avropa kubokunun sahibidir

Azərbaycan triatlonu cari il ərzində beynəlxalq arenada ilk uğuruna nail olub. Bu uğuru ölkəmizə qazandıran Rostislav Pevtsov İspaniyanın Las-Palmas şəhərində keçirilən Avropa kuboku yarışında birinci yeri tutub. İdmançımız bu qələbə ilə həm də aktivinə reytinq balları yazdırıb.

Azərbaycan Triatlon Federasiyasından bildiriblər ki, R.Pevtsov yarışın 1,5 kilometrlik su mərhələsini 18 dəqiqə 40 saniyəyə başa vurub. O, 40 kilometr məsafəyə veloyürüşü 1 saat 9 saniyəyə qət edib. Yarışın sonuncu mərhələsi - 10 kilometr məsafəyə qaçış üzrə isə idmançımız 30 dəqiqə 45 saniyəlik nəticə göstərib. Beləliklə, Azərbaycan idmançısı birinci yeri tutaraq Avropa kubokunun qalibi olub.




mozaika

robototexnika



## Xərçəngə qarşı mübarizə aparan nanorobotlar

Alimlər illərdir həssas əməliyyatlarda istifadə etmək üçün robot texnologiyasını inkişaf etdirməyə çalışırlar. Son zamanlar robotların köməyi ilə ən çətin xəstəliklərin qarşısını almaq mümkün olub. Hazırda tədqiqatçılar nanotexnologiyalar sayəsində xərçəngə qarşı mübarizə aparan mikroskopik robotlar hazırlamağa başlayıblar.

«Phillips Innovative Technologies» laboratoriyasında hazırlanan bu nanorobotlar tibb sahəsində indiyədək mümkün olmayan müalicə üsullarına yol açacaq. Robotlar maqnetik sahə ilə uzaqdan idarə ediləcək. Əvvəllər hazırlanan robotlara fərqli proseslər üçün yeganə bir siqnalla nəzarət etmək mümkün deyildi. Yeni kəşf edilən texnologiya sayəsində isə nanorobotlar mürəkkəb vəzifələri yerinə yetirməkdə heç bir çətinlik çəkmirlər.

Hazırda alimlər nanorobotlar vasitəsilə xərçəngə qarşı mübarizə aparan radioaktiv nüvələri şişlərin içinə yerləşdirməyə çalışırlar. Əgər müsbət nəticə əldə edilsə, bir çox xərçəng növünün müalicəsi mümkün olacaq.

sağlam həyat tərzi

## Yaz mövsümündə qidalanma

Yaz fəsli təkcə təbiətdə deyil, orqanizmdə də oyanış və canlanma dövrüdür. İlin bu fəsli bəzi xəstəliklər üçün xarakterikdir. Yazda allergik və infeksion xəstəliklər baş qaldırır, dermatoloji problemlər yaşanır. Ona görə də ilin bu fəslində düzgün qidalanmadan çox şey asılıdır.




Təbii üsullarla müalicə üzrə mütəxəssis Seyfəddin Əsəd: «Qışda təbii qidalar, o cümlədən təzə meyə-tərəvəzlə təminat nisbətən azalır və buna görə də orqanizmin müqaviməti zəifləyir, virus və infeksiyalara qarşı həssaslıq yüksəlir. Yaz fəslində C vitamininə tələbat artır. Orqanizmin müqavimətini artırmaq üçün göy-göyərti və meyvə-tərəvəzdən başqa bal, düyü, noxud, mərci, qarabaşaq və kartof qəbul etmək məsləhət görülür. Uşaqların yumurta və südlə qidalanması xüsusilə vacibdir. Böyüklər xolesterinin az və ya çoxluğundan asılı olaraq süd və yumurtanı həkim məsləhəti ilə qəbul etməlidirlər. Süd həzm sistemini pozur, allergiyaya meyillilik yaradır. Böyüklər üçün süddən daha çox ağartı məhsulları - qatıq, şor və kəsmiklə qidalanmaq faydalıdır. Orqanizmi amin turşuları ilə təmin etməyin ən güclü üsulu arı məhsullarıdır. Təmiz bal, arı südü, propolis allergiyalı xəstələr və immuniteti aşağı olanlar üçün çox əhəmiyyətlidir. Orqanizmin möhkəmləndirilməsində arı məhsulları çox faydalıdır. Zəli ilə müalicə də maddələr mübadiləsinin yaxşılaşdırılması və xəstəliklərlə mübarizə sahəsində böyük rol oynayır».

maraqlı

## Satışda... dağ havası




İsveçrənin Basel vilayətində yaşayan ingilis Djon Qrin «həqiqi dağ havası» satışı biznesinə başlayıb. Hava ilə doldurulmuş yarım litrlik butulkanın qiyməti 97 dollar, bir litrlik butulkanın qiyməti 167 dollar, 3 litrlik butulkanın qiyməti isə 247 dollardır.

Djon Drin bu qeyri-adi biznesindən əldə etdiyi gəlirin 25 faizini World Vision xeyriyyə təşkilatının hesabına köçürür. Butulkalar orijinallıq sertifikatı və GPS-koordinatı ilə təchiz olunub.

texnologiya



## Tibb bacıları əvəzlənəcək

Xəstəxanada növbə gözləyən pasiyent vaxtını daha səmərəli keçirə bilər. Təzyiq, nəbz və çəkinin ölçülməsi sayəsində tibbi personal bu kimi adi işləri yerinə yetirmək əvəzinə daha əhəmiyyətli məsələlərə diqqət ayıra biləcək. Belə ki, Belçikanın «BeWell» şirkətinin hazırladığı qurğu həkim qəbulundan öncə ilkin tibbi müayinədən keçməyə imkan verir.

«WellPoint» adlanan qurğu lazımi işləri kənar müdaxilə olmadan yerinə yetirir. O, bütün işlərə təxminən üç dəqiqə sərf edir. Tibb bacısına isə bunun üçün daha çox vaxt lazımdır. Müayinədən keçmək üçün pasiyent stendin yanında oturaraq ona tibb kartını göstərməli, əlini təzyiqi ölçən cihaza daxil etməklə aparatı aktivləşdirməlidir.

İstehsalçılar bildirirlər ki, «WellPoint» gələcəkdə qan analizləri götürəcək və şəkərin səviyyəsini ölçəcək. Stendin illik xidməti tibbi müəssisəyə təxminən səkkiz min ABŞ dollarına başa gələcək.





ELAN

**«Vergilər» qəzetinə**
**2017-ci il üçün**
**abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.

Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


Müdriklər deyib ki...



*«İnsanlar nə qədər az bilirlərsə,*
*bilikləri özlərinə o qədər böyük görünür».*
*Jan-Jak Russo (1712-1778)*